Günəş Şərqdən doğur!
❒ № 76 (5357), 2021-ci il
Qiyməti 40 qəpik
ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az 30 aprel 2021-ci il (cümə)



## Gözləntilər çoxdur

**Vətəndaş cəmiyyəti sektoru da yenilənməli və peşəkar insanların sayı artırılmalıdır**

(Səh.6)

**Günün içindən...**



### Nazir ABŞ-dadır, vəziyyəti ağır olaraq qalır

Səmayə Məmmədova: "Azad Rəhimovun Bakıya gətirilməsi barədə xəbər yalandır"

Gənclər və İdman Nazirliyi nazir Azad Rəhimovun Bakıya gətirilərək özəl xəstəxanalardan birində süni nəfəs aparatına qoşulması ilə bağlı bəzi saytlarda yayılan xəbərlərə aydınlıq gətirib.

(səh.7)

### ABŞ-dan gələn zəng...



Vaşinqton Bakının incikliyini aradan qaldırmaq üçün təşəbbüs göstərdi

(səh.2)

# Qarabağda təxribat planı hazırlanır



## Rus əsgərini öldürüb Azərbaycanı günahlandıra bilərlər

**"10 noyabr razılaşmasının pozulması haqda görünür ki, iyunun 20-nə qədər daha tez-tez danışmalı olacağıq".**

Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. O, bu barədə daha ətraflı "Şərq"ə danışıb...

(səh.7)



## Lavrov Bakıya xeyrə gəlmir

*Səfər tarixləri göstərir ki, XİN başçısının iki tərəf üçün "sürpriz" təklifləri var*

(səh.9)

### Bakıdakı tarixi binanın üzərində mansard tikilib

Bu barədə tanınmış memar Elçin Əliyev sosial şəbəkədə məlumat yayıb



(səh.6)

### ✓ Qırğızıstan və Tacikistan atəşkəs barədə razılığa gəlib

(səh.5)

### ✓ Ən yaxşısı ictimai qınaqdı

Şəhidə dil uzadanı küçə süpürməyə cəlb etmək olar

(səh.8)

### ✓ "Makarov"dan açılan atəş...

Mesajlarla dolu terror hadisəsinin üstünü açmaq olardı

(səh.9)

### ✓ 1 392 yeni yoluxma faktı qeydə alınıb

2 274 nəfər sağalıb, 29 nəfər vəfat edib

(səh.6)

# İkinci Dünya müharibəsinin iştirakçılarına birdəfəlik maddi yardım veriləcək



**Dünən Prezident İlham Əliyev "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb.**

Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bununla əlaqədar, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan 4,8 milyon manat vəsait ayrılacaq. Maliyyə Nazirliyi həmin vəsaitin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın isə bu Sərəncamda nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etməlidir.

## Hafiz Paşayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib



**Prezident İlham Əliyev H.M.Paşayevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam verib.**

Sərəncamla Azərbaycan Respublikasında təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Hafiz Mir Cəlal oğlu Paşayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilir.

## Lerikin icra başçısı Ağsuya təyin olundu



**Prezident İlham Əliyev Lerik Rayon İcra Hakimiyyətinin başçısının vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Rövşən Elmidar oğlu Bağırov Lerik Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

*Dövlət başçısının digər Sərəncamı ilə Rövşən Elmidar oğlu Bağırov Ağsu Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.*




## Azərbaycan və Portuqaliya Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib

**29 aprel 2021-ci il tarixində Azərbaycan Respublikası və Portuqaliya Respublikasının Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin 2-ci raundu idarə rəisləri səviyyəsində video konfrans formatında keçirilib.**

XİN-in Mətbuat Xidməti idarəsindən "Şərq"ə verilən məlumata görə, məsləhətləşmələr zamanı Azərbaycan və Portuqaliya arasında ikitərəfli əlaqələr nəzərdən keçirildi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, təhlükəsizlik, regional və digər maraq kəsb edən məsələlər müzakirə olundu. Portuqaliyanın Avropa İttifaqı Şurasına hazırkı sədrliyini nəzərə alaraq, həmçinin Azərbaycanın Aİ ilə əməkdaşlığı məsələləri üzrə fikir mübadiləsi aparıldı.

Müzakirələr zamanı yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsinin, eləcə də parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulandı.

*Tərəflər, pandemiya ilə bağlı məhdudiyyətlər aradan qaldırıldıqdan sonra, siyasi məsləhətləşmələrin növbəti raundunun əyani şəkildə keçirilməsini razılaşdırdılar.*

# ABŞ-dan gələn zəng...

## Vaşinqton Bakının incikliyini aradan qaldırmaq üçün təşəbbüs göstərdi



"Ağ Ev Azərbaycanla münasibətlərin normal məcrada getməsində maraqlı olduğunu ortaya qoydu"

**Məlum olduğu kimi, aprelin 28-də ABŞ dövlət katibi Entoni Blinken Prezident İlham Əliyevə zəng edib. Dövlət katibi Azərbaycan-Amerika ikitərəfli münasibətlərinin inkişafına toxunaraq əlaqələrin daha da möhkəmləndirilməsinin önəmini vurğulayıb. Həmçinin, enerji və regional təhlükəsizlik sahələrində əməkdaşlığa diqqət yönəldərək Cənub Qaz Dəhlizi layihəsinin uğurla icra edilməsinin əhəmiyyətini bildirib.**

Blinken bu il də 907-ci düzəlişin müvəqqəti dayandırıldığını qeyd edib. Söhbət zamanı Ermənistan-Azərbaycan müharibəsindən sonrakı vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyev məsələ ilə bağlı Azərbaycanın mövqeyini çatdırıb. Ölkəmizin ermənilər tərəfindən dağıdılan ərazilərində bərpa işlərinin həyata keçirildiyini deyib. Ölkə rəhbəri regionda kommunikasiyaların açılmasının önəmini də vurğulayıb və uzunmüddətli sülhün təmin edilməsi ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırıb. Dövlət başçısı ABŞ prezidentinin erməni "soyqırımı" ilə bağlı bəyanatına da təmas edib. Prezident qeyd edib ki, Türkiyə Azərbaycanın yaxın dostu və müttəfiqidir, həm də postmüharibə dövründə bölgəmizdə çox önəmli və müsbət rol oynayır.

Blinkenin zəngi Bayden Adminstrasiyasının Azərbaycanla yüksək səviyyədə baş tutmuş ilk təmasıdır. Xatırladaq ki, ötən günlərdə Prezident İlham Əliyev ABŞ-ın yeni administrasiyanın regionla bağlı planının olmadığını və ABŞ dövlət katibinin birtərəfli qaydada Yerevanla təmas saxladığını təəssüflə qeyd etmişdi. Blinkenin zəngi, "907-ci" düzəlişin dayandırıldığını qeyd etməsi, regionda sülhün əldə edilməsinə çalışacaqlarını vurğulaması Baydenin Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunun mesajıdır. Vaşinqton regionda yeni siyasi yanaşma ortaya qoya bilər. Son günlərdə Ağ Evdən Ankara və Bakıya isti mesajlar verilməklə iki qardaş ölkə ilə əlaqələri qaydaya salmaq cəhdi görünür. Ekspertlərin fikrincə, ABŞ rəhbərliyinin Azərbaycanla təması gözlənilirdi. Ağ Ev çalışacaq ki, regionda Rusiyanın mövqeyini mümkün qədər zəiflətsin. Ermənistan və Azərbaycan arasında sülhün əldə edilməsinə töhfə verməklə buna nail olmağa çalışacaq. Görünür, Vaşinqton ermənilərə "hədiyyə" versə də, regionda kommunikasiyaların bərpası prosesindən kənarda qalmaq istəmir. Xüsusilə Cənubi Qafqazı Çinlə mübarizə müstəvisinə çevirməyə hazırlaşan Vaşinqtonun Zəngəzur dəhlizini öz təsirinə almaq niyyəti ola bilər.

**Millət vəkili, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu "Şərq"ə bildirib ki, ABŞ dövlət katibi E.Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə zəngi hər şeydən öncə Vaşinqtonun ölkəmizə verdiyi önəmin göstəricisidir.** Deputat vurğulayıb ki, Blinkenin Prezident Co Baydenin uydurma erməni "soyqırımı" ilə bağlı məlum bəyanatından sonra dövlət başçımıza telefon açması diqqətçəkən məqamdır: "Ağ Ev Azərbaycan-Türkiyə münasibətlərinə yaxşı bələddir. Bayden Administrasiyası da "bir millət, iki dövlət" şüarından məlumatlıdır. Vaşinqton rəsmi Bakının incikliyini aradan qaldırmaq üçün təşəbbüs göstərdi. Əlbəttə, mühüm addımdır və Azərbaycanın regionda güc sahibi olmasının, təsirli mövqeyinin ABŞ tərəfindən qəbul edilməsidir. Ağ Ev Azərbaycanla münasibətlərin normal məcrada getməsində maraqlı olduğunu ortaya qoydu".

*Parlament üzvü qeyd edib ki, Amerika Azərbaycan kimi güclü tərəfdarını itirmək istəmir və əlaqələri qoruyub saxlamaq niyyətini sərgiləyir:* "Blinkenin danışıq zamanı toxunduğu bütün məqamlar və Azərbaycanla əməkdaşlığa xüsusi diqqət çəkməsi söylədiklərimizi təsdiqləyir. Dövlət başçısı İlham Əliyev də öz növbəsində vurğuladı ki, iki ölkə arasındakı əməkdaşlığın zəngin tarixi var. Ölkə başçısı Cənub Qaz Dəhlizinin reallaşmasında da ABŞ-ın dəstəyini yüksək qiymətləndirdi. Blinkenin məhz indiki məqamda Azərbaycan lideri ilə əlaqə qurması Vaşinqtonun sonrakı mərhələdə iki dövlətin əməkdaşlığında daha maraqlı olacağının nümayişidir".

**İsmayıl Qocayev**

# Diqqətli olmalıyıq...

## USAİD-in rəhbər postuna ermənilərə heyranlığı ilə tanınan bir şəxsin gətiriləcəyi gözləniləndir




**ABŞ Prezidenti Co Bayden Azərbaycanda da fəaliyyəti olan USAİD-ə (Beynəlxalq İnkişaf üzrə Agentliyi) rəhbərlik etmək üçün qatı ermənipərəst Samanta Pauerin namizədliyini irəli sürüb. Samanta Pauer ermənilərə o qədər vurğundur ki, hətta həqiqi doğum gününün 24 aprel, yəni qondarma "soyqırım" günü olduğunu bildirib.**

Ekspertlərin qənaətincə, Pauer USAİD-in başına keçər-keçməz, əsas hədəfi qondarma erməni "soyqırımı" mövzusu olacaq. Bununla da təşkilat ermənilərin təbliğat maşınına çevriləcək. Agentliyin birbaşa dövlət katibinə tabe olduğu deyilir. Fəaliyyətinin əsas məqsədi sosial-iqtisadi inkişaf və maddi yardım üzrə Amerika hökumətinin proqramlarını bütün dünyada yerinə yetirməkdir. USAİD həm də ABŞ-ın narıncı inqilablar planlarında yer alan layihələrdən biridir. Bu təşkilatın Corc Sorosla əlaqələrinin olduğu və bir neçə ölkədə "rəngli inqilab" təşkil etdiyi bildirilir.

**Siyasi icmalçı Azər Niftiyev "Şərq"ə bildirib ki, USAİD İkinci Dünya müharibəsindən sonra meydana gəlib.** Ekspertin sözlərinə görə, ilkin təşəbbüslər həmin dövrə təsadüf etsə də, rəsmən 1961-ci ildən fəaliyyətə başlayıb: "Bir çox dövlətlərdə təxribatçı fəaliyyətinə görə, bu təşkilatı həmin ölkələrdən uzaqlaşdırıblar. USAİD İkinci Dünya müharibəsindən sonra güclənən sovet imperiyasının çökdürülməsi istiqamətində Amerikanın başlatdığı siyasətin tərkib hissəsi idi. Təşkilatın yaradılmasında əsas məqsəd bu idi və rəsmən fəaliyyətə başladıqdan təxminən otuz il sonra nəhəng sovet imperiyası parçalandı. Müasir dövrdə Vaşinqton müxtəlif dövlətlərə qarşı təzyiq vasitələrindən istifadə edərkən USAİD-dən də yararlanır. Qurumun dövlət katibinə tabe olması bunun göstəricisidir. Təşkilatın müstəqilliyindən söhbət gedə bilməz. Baydenin təmsil olunduğu Demokratlar Partiyası ilə erməni lobbisi arasında sıx münasibətlər var. Bu münasibətlər müxtəlif ştatlarda erməni lobbisinə bağlı səslərə görədir. Bayden seçkidən əvvəl vəd vermişdi ki, seçiləcəyi təqdirdə erməni "soyqırımı" ifadəsini dilə gətirəcək. Seçkidən sonra verdiyi sözü yerinə yetirdi. USAİD-in rəhbər postuna ermənilərə heyranlığı ilə tanınan bir şəxsin gətiriləcəyi gözlənilənir. Baydenin ermənipərəst şəxslərə "yaşıl işıq" yandırması ABŞ-ın Azərbaycan və Türkiyə ilə münasibətlərinə mənfi təsir göstərir. Lakin nəzərə alaq ki, həmin vəzifəyə təyinat birbaşa Amerika rəhbərliyinin öz səlahiyyətində olan məsələdir".

**A.Niftiyev vurğulayıb ki, Azərbaycan-ABŞ əməkdaşlığında hər iki tərəf maraqlıdır:** "Əlbəttə, müəyyən institutların, o cümlədən USAİD kimi qurumların fəaliyyətinə qarşı diqqətli olmalıyıq. Lakin bəzi ölkələrdəki kimi təşkilatdan imtina etmək, sıxışdırıb ölkədən çıxartmaq formasında deyil, müəyyən islahatlar formasında mübarizəmizi aparmalıyıq. Onsuz da son dönəmlər Azərbaycanda hər sahədə islahatlar gedir. Ölkədə mətbuat azadlığının təmin olunması, sosial medianın sərbəst fəaliyyətinə imkan yaradılması istiqamətində ciddi addımlar atılıb. Qərbin təşkilatlarını arqumentlərimizlə üz-üzə qoya bilərik. Ciddi təhlükə görməsəm də, hesab edirəm ki, ehtiyatı əldən verməməliyik. Bu cür qərarlar isə bizi daha diqqətli olmağa təşviq etməlidir".

**İsmayıl Qocayev**



## İsraildə səfirliyimizi bu il də aça bilərik

### "Əsas məsələ ondan ibarətdir ki, səfirlik Qüdsdə yox, Təl-Əvivdə açılsın"

**Azərbaycan 2021-ci ildə İsraildə diplomatik statuslu ticarət nümayəndəliyi və turizmin inkişafı üzrə rəsmi nümayəndəlik açmaq niyyətindədir. Bu barədə İsrailin Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.**

"Azərbaycan bu il İsraildə diplomatik statuslu ticarət nümayəndəliyi açmaq niyyətindədir. (İsrailred) Xarici işlər naziri Qabi Aşkenazi bu gün videokonfrans rejimində keçirilən iki ölkə arasında ikitərəfli münasibətlərin və ticarətin inkişafına həsr edilmiş İsrail-Azərbaycan müştərək komissiyasının ikinci iclasında İsrail nümayəndə heyətinə başçılıq edirdi.

İclas zamanı Azərbaycan nümayəndə heyətinin başçısı, İqtisadiyyat naziri Mikail Cabbarov bildirdi ki, Azərbaycan bu il İsraildə turizmin inkişafı üzrə rəsmi nümayəndəlik və diplomatik statuslu ticarət nümayəndəliyi açmaq niyyətindədir", - bəyanatda deyilir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bu barədə fikirlərini "Şərq"lə bölüşdü:**

"Biz dost ölkəyiksə, bu prosesi ləngidə bilmərik. Zənnimcə, hətta bu il də səfirlik açıla bilər.

Əsas məsələ ondan ibarətdir ki, səfirlik Qüdsdə yox, Təl-Əvivdə açılsın. Çünki Qüdslə bağlı BMT-nin qətnamələri var.

Biz nə həmin qətnamənin tələblərini, nə də ərəb dünyası ilə əlaqələri poza bilərik. Dediyim kimi, proseslərin inkişafı onu göstərir ki, İsraildə səfirlik açılacaq".

**Kənan**

# İran türk dünyasına qarşı hücumlara meydan verir

### "XİN İranda keçirilən qondarma soyqırım tədbirlərinə sərt etirazını bildirməlidir"

İranda qondarma "erməni soyqırımı"nın 106-cı "ildönümü"nün keçirilməsinə şərait yaradılıb. Tədbirlərdə erməni baş yepiskop Sepuh Sarkisyanla yanaşı, Ermənistanın İrandakı səfiri və ölkə rəsmiləri də iştirak ediblər. Qondarma tədbirin plakatlarının üzərində isə Azərbaycanın, Şuşanın, Qazançı kilsəsinin rəsmləri də təsvir olunub. Tədbiri əks etdirən video və fotolar sosial şəbəkələrdə yayılıb.

Sözün qısası, 30 milyondan çox azərbaycanlının yaşadığı, Türkiyə ilə birlikdə özünü islam dünyasının "liderlərindən" biri hesab edən İranda ermənilər sərbəst şəkildə Ankara və Bakıya qarşı təxribat törədiblər. Lakin Vətən müharibəsi günlərində minlərlə azərbaycanlının "Qarabağa dəstək" aksiyalarının qarşısını amansızlıqla alan Tehran hökuməti, nədənsə, ermənilərə münasibətdə "humanizm" mövqeyini tutub. Heç kimə sirr deyil ki, Azərbaycanın işğalçıya qarşı tətbiq etdiyi blokadanın yarılmasında, istərsə də 44 günlük savaş dövründə İran hər zaman Ermənistan üçün nəfəslik rolunu oynayıb. Azərbaycan və Türkiyənin əl-ələ verməsi ilə blokadaya salınan Ermənistan uzun illər yalnız İranın dəstəyi nəticəsində ayaqda durmağı bacarıb. Üstəlik, İrandan təkcə Ermənistana deyil, Qarabağa da yanacaq, ərzaq daşınıb. Sadalanan faktlar İranın Azərbaycana və azərbaycanlılara qarşı qərəzli mövqeyini ortaya qoyur.



**Fərəc Quliyev: "Həqiqi soyqırım mərasimləri təşkil etmək istəyirlərsə, türklərə qarşı həyata keçirilmiş qətliamları ansınlar"**

**İranın mövqeyi ilə bağlı "Şərq"ə danışan Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev deyib ki, Tehran heç vaxt Azərbaycana münasibətini dəyişməyib. Partiya rəhbəri bildirib ki, İranın bir məsələdə köklü siyasəti var:** "Cənub qonşumuz Azərbaycanın zəif qalmasında, güclənməməsində maraqlıdır. Belə olmasaydı, ölkəmizə qarşı addımlar atmazdı. 44 günlük müharibə zamanı Rusiyadan Ermənistana birinci dəfə 400 ton, ikinci dəfə 500 ton silah-sursat daşındı. Bu texnikaların hamısı İran ərazisindən keçirilərək, M2 yoluyla ermənilərə çatdırıldı. O cümlədən düşmənin texnikaları üçün yanacaq aparıldı. Digər qonşumuz Gürcüstan hava sərhədlərini bağlayaraq ermənilərə silah daşınmasına imkan yaratmadı. İran Birinci Qarabağ müharibəsində də Azərbaycana yox, işğalçı Ermənistana dəstək verdi. İşğal olunmuş rayonlarımızın talanmasında birmənalı şəkildə iştirak etdi. Söküntülərdə birbaşa fəallıq nümayiş etdirdi. İslam alimlərinin fətvasına görə, qəsb edilmiş torpaqlarda dəstamaz almaq, ibadət etmək günahdır. Bəs müsəlman İranın düşmənin işğal etdiyi Azərbaycan torpaqlarında nə işi var idi? Əgər Tehran hökuməti ümmətçilik ideologiyasından çıxış edirsə, islam birliyindən danışırsa, Fələstində və başqa yerlərdə müsəlmanlara qahmar çıxırsa, niyə öz qonşuluğundakı müsəlman azərbaycanlılara fərqli münasibət sərgiləyir? İndi də qondarma erməni "soyqırımı"na həsr olunmuş tədbirlər keçirirlər".

**F.Quliyev vurğulayıb ki, ermənilər Güney Azərbaycanda da soyqırımlar, qətliamlar törədiblər, on minlərlə günahsız insanı qətlə yetiriblər:** "Həqiqi soyqırım mərasimləri təşkil etmək istəyirlərsə, türklərə qarşı həyata keçirilmiş qətliamları ansınlar. Görünən odur ki, İran və Ermənistanın bu məsələlərdə fikirləri üst-üstə düşür. Tehran rejimi də tarix boyu türklərə qarşı qətliamlar, repressiyalar törədib. Ona görə də bir-birinə bəraət qazandırmağa çalışırlar. Çox yanlış siyasətdir. 2010-cu il parlamentdə ilk çıxışım ondan ibarət idi ki, Türkmənçay müqaviləsinin qüvvədən düşməsini tanımaq lazımdır. Bununla İrəvan xanlığının taleyi ilə bağlı sualları gündəmə gətirə bilərdik. Həm də İran mollalarının bizə qarşı ərazi iddialarının qarşısını almış olardıq. Adekvat davranmaq lazımdır. Güney Azərbaycanın azadlıq hərəkatına dəstəyimizi artırmalıyıq. Başa düşürəm, hakimiyyət protokol qaydasına görə, bəzi məqamlara açıq toxuna bilmir. Amma ən azından siyasi partiyalar, QHT-lər, media bu məsələdə kəskin mövqeyini ortaya qoymalıdır. Azərbaycan XİN İranda keçirilən qondarma "soyqırım" tədbirlərinə sərt etirazını bildirməlidir. Tehran bir tərəfdən bizimlə qonşuluq münasibətlərini inkişaf etdirmək barədə danışıqlar aparır, digər yandan türk dünyasına qarşı hücumlara meydan verir. Bir müddət öncə Türkiyə generalı demişdi ki, İran öz ərazisindəki PKK terrorçuları ilə mübarizə aparmalıdır. Bildirmişdi ki, əgər Tehran hökuməti bunu bacarmırsa, türk ordusu İran ərazisinə daxil olaraq terrorçuları zərərsizləşdirməyə qadirdir. Güney Azərbaycanda yaşayan 40 milyona yaxın soydaşımız da Tehran hökumətinin bu addımına etiraz səsini qaldırmalıdır".

**İsmayıl Qocayev**



## Struktur islahatları XİN-i gücləndirəcək

### "Səfirliklərlə Azərbaycan XİN arasında işlər daha sürətli mübadilə formasını alacaq"

**Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) strukturunda dəyişiklik edilib.**

Nazir müavini Fariz Rzayevin səlahiyyətləri artırılıb. O, bundan sonra nazirliyin İkinci Avropa İdarəsi, Amerika İdarəsi, Asiya İdarəsi, Yaxın Şərq və Afrika İdarəsi, Nazirliyin İnspeksiyası, UNESCO üzrə Milli Komissiyanın Daimi Katibliyi, Ümumi Katiblik, Xüsusi Şöbə və İşlər İdarəsinin fəaliyyətinə nəzarəti həyata keçirəcək.

Bununla yanaşı əvvəllər xarici işlər nazirinin kurasiyasında olan Dövlət Protokolu İdarəsi də F.Rzayevin nəzarətinə verilib.

**XİN-dəki struktur dəyişikliklərini "Şərq"ə dəyərləndirən millət vəkili Asim Mollazadə dəyişikliklərin müsbət nəticəsi olacağına inandığını qeyd edib:** "Ölkəmiz üçün çox önəmli olan bir sıra istiqamətlər üzrə fəaliyyət güclənəcək, səfirliklərlə Azərbaycan XİN arasında işlər daha sürətli mübadilə formasını alacaq. Uzun zamandır ki, XİN-in işlərində hansısa dəyişiklik yox idi. Ona görə də belə struktur islahatlarına müsbət yanaşırıq. Ümid edirik ki, böyük əhəmiyyət kəsb edən XİN güclənəcək və Azərbaycanın dövlət maraqları uğurla həyata keçiriləcək".

**Yeganə**

# Lavrov Bakıya xeyrə gəlmir



### Səfər tarixləri göstərir ki, XİN başçısının iki tərəf üçün "sürpriz" təklifləri var

Rusiyanın Xarici işlər naziri Sergey Lavrov mayın 10-11-də Azərbaycanda işgüzar səfərdə olacaq. Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib. M.Zaxarova qeyd edib ki, səfər mövcud olan razılaşmalara uyğun olaraq həyata keçiriləcək. O bildirib ki, S.Lavrov mayın 5-6-da İrəvana səfər edəcək.

***Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev səfərin məqsədini "Şərq"ə açıqlayıb. Analitik vurğulayıb ki, Lavrov Azərbaycana xeyirli məqsədlə gəlmir:*** "Mayın 10 və 11-i təsadüfi seçilməyib. Çünki noyabrın 10-da üçtərəfli bəyanat, 11 yanvar 2021-ci ildə isə yenidən üçtərəfli bəyanat imzalanıb. Bundan başqa Rusiya sülhməramlılarının mayın 9-da Xankəndi və Xocalıda dünya praktikasında olmayan bir addım atacağı gözlənilir. Parad keçirmək məsələsini gündəmə gətiriblər. Bütün bu gərginlikdən sonra təbii ki, Azərbaycanın Rusiyaya olan münasibətində yeni bir gərginlik artan xətlə davam edəcək. Lavrov gəlib ilk növbədə bu gərginliyi sakitləşdirməyə çalışacaq. Digər tərəfdən ola bilsin ki, Rusiyanın yeni təkliflərini gətirsin. Çünki Aleksandr Duqin çıxış etdi və Azərbaycanı hədələdi. Məlumdur ki, o da Putinin sözçüsüdür. Duqin iddia irəli sürdü ki, Azərbaycan mütləq KTMT-yə daxil olmalıdır. Bu isə ölkəmiz üçün ağır nəticələr gətirə bilər".

İyunun 20-də Ermənistanda seçkilər keçiriləcəyini söyləyən C.Nuriyev bildirib ki, ruslar Paşinyanın hakimiyyətdə qalmasını istəyirlər: "Çünki ABŞ-ın hazırda Ermənistanda reytinqi çox böyükdür. Onu zərərsizləşdirmək üçün yenidən Azərbaycan kartından istifadə edəcəklər. Təbii ki, Azərbaycan tərəfi də bundan yararlanmalıdır. Çünki Xankəndidən erməni terrorçularını çıxartmağa başlayıblarsa, bu, Azərbaycan üçün həm bir mesaj, həm də bir jestdir. Ölkəmizin də başqa istəkləri ola bilər. Ən azı Ağdam və Tərtərin azərbaycanlılar yaşayan kəndlərinin bizim nəzarətimizə verilməsini tələb edə bilərik. Ona görə də Lavrovun səfəri zamanı bu tipli məsələlər müzakirə oluna bilər. Bilmirəm ki, o, Bakıya gələndə işgüzar səfər olduğu üçün prezidentlə görüşəcək, ya yox. Təbii ki, Lavrov hansısa tədbirlər paketi ilə Azərbaycana gəlir. Elə məsələlər var ki, onlar cəmiyyət üçün açıqlanmayacaq. Ən azı Qarabağla bağlı məsələlər, Azərbaycan-Türkiyə, Türkiyə-Rusiya, Azərbaycan-Ermənistan münasibətləri masada olacaq. Hər halda bu məsələlər cənab Prezidentlə müzakirə oluna bilər".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da düşünür ki, Lavrovun ölkəmizə səfərləri heç zaman xeyrimizə olmayıb:** "Rusiyalı diplomatın bütün təşəbbüsləri ziyanımıza olub. 2016-cı ilin aprelində təcili Bakıya gəldi və inandırdı ki, münaqişənin həlliylə bağlı "həll planı" işə düşəcək. İşğalçıya qarşı əks-hücumu dayandırdıq, ancaq Lavrov Bakını tərk etdikdən sonra Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması vacibliyini arxa plana keçirdi.

Lavrov yenə gəlir. Rusiyanın Xarici işlər naziri mayın 5-6-da Ermənistanda, mayın 10 və 11-də isə Azərbaycanda olacaq. Səfərlər arasındakı bir neçə günlük fasilə diqqətimi çəkdi. Belə çıxır ki, Lavrov mayın-5-də İrəvana gedəcək, mayın 6-da Moskvaya qayıdacaq, 4 gün keçdikdən sonra yenidən bölgəyə - Azərbaycana gələcək. Nədən Lavrov birbaşa İrəvandan Bakıya gəlməyəcək? Görünür, Lavrovun hər iki tərəf üçün "sürpriz" təklifləri var. O həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qabaqlamaq istəyir. Çünki Ərdoğan daha əvvəl bəyan etmişdi ki, Ramazan bayramında, yəni mayın ortalarında Şuşaya gəlmək istəyir. Bakı və Ankara bu səfər üçün hazırlıqlara başlayıb".

> "Moskva narahatdır və Ərdoğanın Şuşaya səfəri zamanı irəli sürəcək təkliflərdən ehtiyat edir"

*Analitik qeyd edib ki, Moskva narahatdır və Ərdoğanın Şuşaya səfəri zamanı irəli sürəcək təkliflərdən ehtiyat edir:* "Ərdoğanın aprelin 24-də azərbaycanlı həmkarı İlham Əliyevlə telefon danışığından sonra "birgə addımlar atacağıq" açıqlaması da Kremli narahat etməmiş deyil.

Lavrov Bakıya hansı təkliflə gəlirsə-gəlsin, Kremlin növbəti hiyləsinə aldanmaq olmaz. Rusiyanın Qarabağdakı hərbçiləri Xankəndidə "hərbi parad" keçirəcək və bundan bir gün sonra Lavrov Bakıya gəlib bizi sakitləşdirməyə və "balanslı xarici siyasəti" qorumağa çağıracaq. Rusiya ilə Türkiyə bizim üçün eyni ola bilməz. Bunu Lavrova da anlatmağın zamanıdır".

**Yeganə Bayramova**

# İran 44 günlük müharibədə sınaqdan üzüağ çıxmadı

"Ermənistan Azərbaycana qarşı hücuma keçdi, İranı da cəlb edir. Sözsüz ki, hamı Qubadlı sərhədinə Sünikdən edilən hücumdan xəbərdardır. Hazırda İrəvan yediyi zərbədən özünə gəlməyə çalışmaqla yanaşı, Azərbaycana qarşı revanş üçün imkanlar axtarır. Əlbəttə, bu imkanları 44 gün ərzində də sınamaqdan imtina etməmişdi".





*Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. O, daha ətraflı "Şərq"ə danışıb:* "Armradio.am" xəbər yayıb ki, Azərbaycan Füzuli, Laçın və Zəngilanda hava limanı tikməyə hazırlaşır. Aeroportların bu ilin payızınadək tikilməsi planlaşdırılır. Eyni zamanda, uçuş zolağı bütün növ mülki və hərbi təyyarələri qəbul edə biləcəkdir.

Guya, Azərbaycan İsrail üçün İrana qarşı tramplin rolunu oynayır və Azərbaycanın hava limanlarını xüsusi əməliyyatlar üçün İsrailə verməsi təkzibedilməz bir həqiqət imiş. Eyni zamanda belə bir iddia qaldırılır ki, məhz bu məqsədlə İsrail-İran münasibətlərinin kəskinləşməsi fonunda yuxarıdakı üç hava limanından ikisi, demək olar ki, İranla sərhəddən 100 km məsafədə inşa edilir. Tikinti mümkün qədər tez başa çatdırılacaq. Yəni İsrailin Azərbaycanla hərbi əməkdaşlığı təkcə silah almaqla məhdudlaşdırılmır, Azərbaycanın İranla ortaq sərhədi bölgədə İsrailin geosiyasi maraqlarına cavab verir. Buna görə də İran Azərbaycanda baş verənlərə laqeyd qalmamalıdır. Çünki sonda hər şey özünə qarşı çevrilə bilər".

> "Azərbaycan bütün hallarda İsraillə əməkdaşlığı davam etdirməlidir"

**Ə.Əlibəyli iddialara belə münasibət bildirib:** "Azərbaycan bütün hallarda İsraillə əməkdaşlığı davam etdirməlidir. Biz bunun faydasını 44 günlük müharibədə gördük. İkincisi, Azərbaycan-İran münasibətləri 44 günlük müharibədə sınaqdan keçdi.

Beləliklə, Tehrana qarşı ən azı bundan sonrakı on illiklər boyunca necə davranacağımızın əsası formalaşdı. İran-İsrail qarşıdurması bütün cəbhələrdə gedir. İmkanı olanlar İran sərhəddi boyunca fəaliyyət göstərən xarici ölkələrin hərbi bazalarının xəritəsinə baxa bilər.

Azərbaycan Bloklara Qoşulmama Hərəkatına üzv olmaqla Rusiya və İran üçün o mesajı verdi ki, iki ölkə əleyhinə öz ərazisindən istifadə edilməsinə imkan yaratmayacaq.

Aeroportlar ərazilərimizin yerli faktor kimi tezliklə məskunlaşdırılması, qlobal faktor kimi inteqrasiya, daşımalar və s. imkanlar verir".

**Kənan Novruzov**

# Çöküş başladı

## Kreml "böyük oyunlar"ın qurbanına çevrilir

*Rusiya dörd ölkənin yeddi diplomatının ölkədən çıxarılmasına qərar verib. Qərara əsasən Litva iki, Slovakiya üç, Latviya və Estoniyanın hərəsinin bir diplomatı həftə ərzində Rusiyanı tərk etməlidir.*



Daha heç bir dövlət Rusiyanın yırtıcı siyasətinin qarşısında baş əyməyəcək

Moskva-Praqa münasibətlərində gərginlik davam edir. Gərginlik Çexiya hakimiyyətinin Rusiyanı Vrbetiçedəki silah anbarlarında baş vermiş partlayışlarda əlinin olması ittihamlarından sonra başlayıb. Bundan sonra ölkələr qarşılıqlı qaydada bir sıra diplomatları arzuolunmaz şəxs elan edib. Çexiya ilə həmrəylik nümayiş etdirən Litva, Slovakiya, Latviya, Estoniya, həmçinin ABŞ, Bolqarıstan, Ukrayna, Polşa və Rumıniya da rusiyalı diplomatlarla bağlı analoji addım atıb.

Maraqlıdır, Rusiyanın dünyada müttəfiqi, partnyoru yoxdur. Yaxşı, niyə?

**BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli "Şərq"ə açıqlamasında bunun səbəbini izah etdi:** "Bəzi analitiklər Rusiya ilə Qərb arasında soyuq müharibəni xatırladan münasibətlərin başladığını düşünürlər. Əslində, həqiqətən, belədir. Kreml isə bunun günahını özündə axtarmalıdır. Məsələ ondan ibarətdir ki, rəsmi Moskva haqsız iddialarından geri çəkilmək istəmir. Hətta Sudana iddia edir, orada baza yaratmağa çalışır. Sudan isə təbii olaraq bununla razılaşmır və Rusiyanın məqsədini öz müstəqilliyinə təhdid kimi qəbul edir. Ümumiyyətlə, Kremlin xarici siyasəti həmişə ekspensionist xarakter daşıyıb. Şimal qonşumuz düşünür ki, digər ölkələr ya köləmiz, ya da düşmənimiz olmalıdır. Bu, müasir dövrə uyğun gəlməyən yanaşmadır. Yalnız hərbi gücə arxalanaraq fəaliyyət göstərmək XXI əsrin tələblərinə yaraşmayan, anormal siyasətdir. Almaniya da Rusiya kimi güclü dövlətdir. Amma ondan narazılıq edən yoxdur. Çünki əlaqələrini normal qurub".

*S.Məmmədli rəsmi Moskvanın hegemon siyasətini isbatlayan digər faktları da sadaladı:* "Rusiya nəinki dinc dayanmır, hətta təzyiq edir. Post-sovet məkanındakı ölkələrə öz pasportunu paylamaq, ardınca isə müdafiə adı ilə dominant siyasət yeritmək doğru deyil və qınanılmalıdır.

Bu, heç bir beynəlxalq normaya uyğun deyil. Baltikyanı ölkələr də həmişə Kremlin təzyiqindən əziyyət çəkiblər. II dünya müharibəsindən sonra Rusiya Litva, Latviya və Estoniyaya öz əhalisini yerləşdirməyə başladı. Həmin əhalinin çoxu hərbçi olduğuna görə şovinist davranır, yerli dili, qayda-qanunları qəbul etmirdilər.

Bu isə yerli sakinlərlə ziddiyətlərə səbəb olurdu. Həmin problem indi də var. Hətta Estoniya, Latviya ilə ərazi problemləri də mövcuddur. Rusiya bu ölkələrin ərazisinin müəyyən hissəsini zəbt edib. Uzaq Şərqdə Yaponiya ilə Kuril adaları üstündə mübahisə gedir. Hərçənd Kuril adaları tarixən Yaponiyanın olub. Rusiyanın hərbi təyyarələri Cənubi Amerikanın, Kolumbiyanın hava sərhədini pozur. Bu, sadəcə həyasızlıqdır. Axı sənin Cənubi Amerika ilə nə işin var?! Qarabağla bağlı məsələdə də eyni vəziyyətdir: Kreml imzalanan sənədlərin tələblərinə əməl etmədən öz hegemon siyasətini davam etdirir".

**Professorun sözlərinə görə, dekonstruktiv siyasət Kremlin "başını ağrıdacaq":** "Son dövrlərədək Qərb Rusiyanın "şıltaqlığına" dözürdü. Hətta sakitlik yaratmaq üçün onu NATO-nun tərəfdaş qrupuna əlavə etmişdilər. Lakin gördülər ki, Kreml bu vəziyyətdən istifadə edərək təzyiqləri artırır. Ona görə də Moskvanı öz sıralarından uzaqlaşdırdılar. ABŞ-da Co Bayden hakimiyyətə gəldikdən sonra isə şimal qonşumuza qarşı daha radikal mövqe sərgiləndi. Bir çox ölkələrdə, o cümlədən Çexiyada, Avstriyada xeyli rus diplomatı var. Niyə?! Buna ehtiyac yaradan nədir?! Məgər Rusiya həmin ölkələrdə öz filialını yaradır?!

Məsələ ondan ibarətdir ki, diplomatlar da öz işləri ilə məşğul olmur, Moskvadan aldıqları tapşırıqlara uyğun olaraq həmin ölkənin daxili işlərinə müdaxilə edirlər. Həmçinin həmin ölkələrdə heç də iqtisadi fəaliyyətlə məşğul olmayan onlarca rus şirkəti var. Bütün bunlar Rusiyanın anormal, yırtıcı siyasətinin təzahürüdür. Doğrudur, Kreml özünü "sındırmaq" istəmir. Amma Rusiya rəhbərliyində çalışmış şəxslər özləri də etiraf edirlər ki, bu siyasət ölkənin gələcəyini yaxşı yerə aparmır. Bütün dünya Kremlə qarşıdırsa, deməli, günah onun özündədir. Putin kimi avtoritar siyasətçilərin əsas xüsusiyyəti ondan ibarətdir ki, öz ambisiyaları naminə hətta xalqı da bada verməyə hazır olurlar.

Diqqət edin, Rusiyanın şimal hissəsində, o cümlədən Uralda, Sibirdə çoxlu "ölü" ərazilər var. Lakin bu, hakimiyyəti qətiyyən düşündürmür. Bir sözlə, problemlər çoxdur. Təəssüf ki, bu dövlət dünya üçün də çətinliklər yaradır. Ancaq ən çox əziyyət çəkən özü olacaq".

**Kənan Novruzov**



## Mübariz Əsgərov Milli Televiziya və Radio Şurasının üzvü təyin edilib

**Prezident İlham Əliyev M.A.Əsgərovun Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının üzvü təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Mübariz Ağali oğlu Əsgərov 6 il müddətinə Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının üzvü təyin edilib.

## Qırğızıstan və Tacikistan atəşkəs barədə razılığa gəlib



**Qırğızıstan və Tacikistan xarici işlər nazirləri atəşkəs barədə razılığa gəliblər.**

APA TASS-a istinadən xəbər verir ki, razılığa əsasən, bu gün yerli vaxtla saat 20.00-dan atəşkəs qüvvəyə minməlidir.

Razılaşmaya görə, hər iki tərəfdən silahlı qüvvələr əvvəlki yerlərinə qayıdacaq.

Tərəflər ərazidə monitorinq aparılması barədə də razılığa gəlib.

Qeyd edək ki, bu gün Qırğızıstan və Tacikistan sərhədində hər iki ölkənin silahlı qüvvələri arasında atışma olub. Toqquşma nəticəsində 1 Qırğızıstan vətəndaşının öldüyü, 16 nəfərin isə yaralandığı bildirilir. Tacikistan tərəfi isə üç vətəndaşın güllə yarası aldığını açıqlayıb.

Axşam saatlarında Qırğızıstanın Batkən regionunun Leilek rayonunda Tacikistan və Qırğızıstan sərhədçiləri arasında yenidən atışma olduğu bildirilir.

# Azərbaycan Moskva görüşündə israrlı mövqeyini ortaya qoyub

*Aprelin 27-də Moskva şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 19-cu iclası keçirilib. İclasda Komissiyanın həmsədrləri - Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Rusiya Hökuməti sədrinin müavini Aleksey Overçukun rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər.*

Əsas məsələ üçtərəfli razılaşmanın müddəalarını həyata keçirməkdir



Komissiyanın həmsədrləri iclasda çıxış edərək Azərbaycan və Rusiya dövlət başçılarının səyləri sayəsində iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdığını və müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdilər. İki ölkə arasında ticarət və investisiya, nəqliyyat potensialının artırılması, rəqəmsallaşma, innovativ inkişaf və rəqəmsal iqtisadiyyat, turizm və humanitar sahələri əhatə edən altı Yol xəritəsi çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi istiqamətində işlərin uğurla davam etdirildiyi bildirilib.

**İclasın əhəmiyyətini "Şərq"ə dəyərləndirən millət vəkili Razi Nurullayev bildirib ki, toplantının keçirilməsində əsas məqsəd 10 noyabr üçtərəfli razılaşmasının müddəalarını həyata keçirməkdən ibarət idi:** "Azərbaycan tərəfini maraqlandıran əsas məsələ kommunikasiyaların açılmasıdır. Ölkəmiz bu məsələnin həllində israr edir. Ermənistan tərəfi isə hər bir məsələni 64 erməni terrorçusunun buraxılmasına bağlayır. Lakin bütün bunlara baxmayaraq, üçtərəfli bəyanatın müddəaları həyata keçirilməlidir. Tərəflər ümumi maraqları tapmaq üçün komissiyanın iclasında iştirak edirlər. Əlbəttə ki, kommunikasiyalar bərpa olunsa, Ermənistan iqtisadiyyatı bu durumdan faydalana bilər. Çünki Ermənistanın Rusiyaya, Rusiyanın İrana və Türkiyəyə yolu açılır, Asiya ilə Avropa birləşir. Bir sözlə, ciddi logistik mərkəz yaranır. Onun üçün də bu məsələlərin əhəmiyyəti iclasda müzakirə olunub".

**Deputatın fikrincə, iclasda əlavə olaraq bəzi siyasi məsələlərlə bağlı da fikir mübadiləsi aparılıb:** "Söhbət Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhün bağlanması üçün atılan addımlardan gedir. Hələ ki, bu sülh iqtisadi məsələlərdən başlayır, sonrakı mərhələdə isə başqa mövzular gündəmdə ola bilər. Lakin Moskvadakı iclasda 10 noyabr üçtərəfli bəyanatla əlaqədar müddəaların yerinə yetirilməsinə dair danışıqlar aparıldı".

**Yeganə Bayramova**

# Gözləntilər çoxdur

## Vətəndaş cəmiyyəti sektoru da yenilənməli və peşəkar insanların sayı artırılmalıdır



Prezident İlham Əliyev Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvlərinin təyin edilməsi barədə Sərəncam imzalayıb. Sərəncamla Müşahidə Şurasının yeni tərkibi təsdiqlənib.

Məlumat üçün bildirək ki, yeni tərkibdə xeyli tanınmış simalar var. Əsasən, Şuranın tərkibində ictimaiyyətdə daha çox tanınan, vətəndaş cəmiyyətinin inkişafı üçün aktiv fəaliyyət ortaya qoyan müstəqil fikirli QHT-çilər yer alıblar. Yeni tərkibdə təmsil olunanlardan biri də "Humanitar Tədqiqatlar" İctimai Birliyinin sədri Əvəz Həsənovdur.

**QHT rəhbəri Əvəz Həsənov "Şərq"ə açıqlamasında deyib ki, son illərdə ölkədə gedən islahatlar fonunda vətəndaş cəmiyyəti sektorunda islahatların aparılması qaçılmaz hal almışdı. Onun sözlərinə görə, qurumda dəyişikliyin zəruri olması ilə bağlı dəfələrlə məsələ qaldırılıb:** "Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyini həyata keçirən orqanda islahat labüd idi. Şükürlər olsun ki, nəhayət bu reallaşdı. Əminəm ki, agentliyin yaranması islahatların başlanmasında və gələcəkdə bu sahədə şəffaflığın və peşəkarlığın artmasında, təminatın gücləndirilməsində böyük rol oynayacaq. Mən QHT-lərlə bağlı təkliflərimi mütəmadi gündəmə gətirərək Müşahidə Şurasına üzv olmuşam. Hər zaman demişəm ki, bu sahə yenilənməli və peşəkar insanların sayı artırılmalıdır. Eyni zamanda beynəlxalq əlaqələrin genişləndirilməsi də çox vacibdir. QHT sektorunda çalışan şəxslərin potensialı, təminatı gücləndirilməlidir ki, təşkilatlar layihələrin icrasında uğur əldə edə bilsinlər. Dövlət rəhbərliyi agentlik yaratmaqla bizə bu şansı verdi və istəyini ortaya qoydu. Müstəqil düşüncəli, QHT sektorunda göz önündə olan insanların quruma cəlb edilməsi agentliyin fəaliyyətinə müsbət töhfə verəcək, həm də sərbəstlik olacaq. Gözləntilər çoxdur. Şuranın yeni üzvləri qurumu inkişaf etdirməlidir. İdarə Heyəti Şura üzvlərinin əlində cəmləşəcək, vətəndaş cəmiyyəti bundan xeyir görəcək. Bütün məsuliyyət yeni üzvlərin üzərinə düşür".

**İsmayıl Qocayev**



## Qubadlıda 3 milyon kvadratmetrdən çox ərazi minalardan təmizlənib

**Bu günə kimi Qubadlıda Kənd Təsərrüfatı Nazirliyi və "Azərsun" şirkətinin sifarişi ilə 3 milyon 167 min kvadratmetr ərazi təmizlənib.**

Bunu Trend-in Qarabağ bürosuna Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) bölmə rəhbəri Bəhruz Namazov deyib.

Onun sözlərinə görə, Qubadlıda yarımstansiyanın tikiləcəyi yer minalardan təmizlənib. Sözügedən sahə 24 min kvadratmetr ərazini əhatə edir:

""Azərenerji"nin müraciəti əsasında Qubadlı rayonunun girişində yarımstansiyanın inşası üçün 24 min kvadratmetr ərazi minalardan təmizlənib. Əlavə olaraq burada "Azərişıq" ASC-nin müraciəti ilə işıq xəttinin çəkilməsi üçün 39 min kvadratmetr ərazi ANAMA tərəfindən təmizlənib".

*Qeyd edək ki, Qubadlı rayonu ərazisində dekabr ayının 14-dən minatəmizləmə əməliyyatlarına start verilib.*

## Bakıdakı tarixi binanın üzərində mansard tikilib

### Bu barədə tanınmış memar Elçin Əliyev sosial şəbəkədə məlumat yayıb



**Nəsimi rayonu, 28 may küçəsindəki tarixi binanın üzərində əlavə tikinti işləri aparılıb.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə tanınmış memar Elçin Əliyev sosial şəbəkədə məlumat yayıb. O, sözügedən yeni tikilinin fotolarını feysbukda paylaşaraq binada qanunsuzluğa yol verildiyini qeyd edib.

Memarın sözlərinə görə, 1908-ci ildə tikilən bu bina Azərbaycan ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilib.

*Məsələ ilə bağlı Mədəniyyət Nazirliyinə sorğu ünvanladıq. Cavab olaraq saytımıza bildirildi ki, bununla əlaqədar Mədəni İrsin Qorunması Dövlət Xidmətinə artıq məlumat verilib.*

## 1 392 yeni yoluxma faktı qeydə alınıb

### 2 274 nəfər sağalıb, 29 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 392 yeni yoluxma faktı qeydə alınıb, 2 274 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 29 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 317 913 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 287 298 nəfər müalicə olunaraq sağalıb, 4 490 nəfər vəfat edib, aktiv xəstə sayı 26 125 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 756, ötən müddət ərzində isə ümumilikdə 3 229 867 test aparılıb.

# Təhlükəsizlik orqanları peşəkarlıqla çalışır



Bu günlərdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev rəsmi səfərdə oldu. Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri Qriqol Liluaşvili ilə keçirilmiş görüşdə regionda mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, beynəlxalq terrorçuluğa və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin təkmilləşdirilməsi, təcrübə və səmərəli məlumat mübadiləsi sahəsində əməkdaşlığın daha da genişləndirilməsi müzakirə olunub.





"Müxtəlif regional və beynəlxalq qüvvələr var ki, Azərbaycanla Gürcüstan arasındakı münasibətləri soyuq müstəviyə daşımaq istəyirlər"

General-polkovnik Əli Nağıyev ölkələr arasında olan mövcud münasibətlərin regional təhlükəsizliyin təmin olunmasına xidmət etdiyini qeyd edərək bundan sonra da müvafiq orqanların dövlətlərin milli təhlükəsizliyinə yönələn beynəlxalq təhdid və hədələrə qarşı birgə mübarizə istiqamətində daim sıx əməkdaşlıq edəcəyinə əminliyini bildirib.

**Səfərin əhəmiyyətini "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin (STM) idarə heyətinin sədri, millət vəkili Zahid Oruc bildirib ki, son illər ərzində dövlət təhlükəsizlik orqanları həqiqətən də regional və beynəlxalq təhlükəsizliyimizin qorunmasında cənab Prezident tərəfindən müəyyənləşmiş prinsipial xəttə uyğun olan peşəkarlıqla çalışmaqdadırlar:** "44 günlük zəfər hərəkatımız dövründə ölkə başçısının dilindən açıq şəkildə eşitdik ki, düşmən tərəfin qəbul etdiyi məxfi qərarlar masaya daşınan zaman həmin qərarlardan məlumat almaq imkanında idi. Bu o deməkdir ki, əks-kəşfiyyat sistemi yenidən qurulub. Bunlar gözəgörünməz cəbhədə bir tərəfdən dövlətə, milli maraqlara sədaqət, digər tərəfdən peşəkarlıqla meydana gəlir. Eyni zamanda keçmiş zamanlarda həmin strukturlarda yol verilən nöqsanların aradan qaldırılması üçün gecə-gündüz çalışma və xalqımızın rəğbətini əldə etmə, regional və beynəlxalq dairələrdə özümüz üçün etibarlı partnyorluq tapmaq, müxtəlif ölkələrlə müştərək əlaqələr hesabına reallaşır. Bu həm də o deməkdir ki, təhlükəsizlik orqanları Azərbaycanın silahlı strukturlarının sanki biri kimi yer alırlar.

Delimitasiya və demarkasiya məsələsini xatırlatmaq istərdim. Son aylarda həm Moskvada keçirilən toplantıda, həm də digər üçtərəfli formatlarda aparılan danışıqlarda dövlət rəhbəri onlara çox böyük etibar etdi".

**Z.Oruc qeyd edib ki, Əli Nağıyev həqiqətən də DTX sistemində formalaşan və Ulu Öndərin müəyyənləşdirdiyi mühüm prinsiplərə layiq fəaliyyət aparmağa və Azərbaycanın bu yöndə öz vətəndaşlarından bu sistemdə təşkil olunmasına çalışan bir şəxsdir:** "Belə olan təqdirdə bizdən müxtəlif formada Ermənistan məğlubiyyətinin əvəzini çıxmağa çalışan digər dairələr biləndə ki, ermənilər heç nəyə qadir deyillər, onda müxtəlif təxribatlar törətməyə çalışırlar. Gürcüstan siyasi elitası 44 günlük savaş dövründə bizimlə düzgün rəftar etdi. İstər Ulu Öndərin, istərsə də cənab Prezidentin müəyyənləşdirdiyi xəttə uyğun olaraq Gürcüstana göstərdiyimiz dostluq, qardaşlıq, etibarlı partnyorluq münasibətlərinə adekvat davrandılar. Lakin bununla bərabər Gürcüstanın siyasi palitrası çox zəngindir, orada millətçi şovinist dairələr və qüvvələr var. Müxtəlif regional və beynəlxalq qüvvələr var ki, Azərbaycanla Gürcüstan arasındakı münasibətləri soyuq müstəviyə daşımaq istəyirlər. Hesab edirəm ki, səfərin bağlı qapılar arxasında olan hissələri prinsipial dövlət məsələlərinə həsr olunub və bunun müsbət nəticələrinə inanırıq".

**Yeganə Bayramova**

# Avropa İttifaqının çağırışı savabsız qalmayacaq



**Ermənistan gec-tez minalanmış ərazilərin xəritəsini verməyə məcbur olacaq**

**Avropa İttifaqı (Aİ) Azərbaycan və Ermənistanın 9 noyabr (10 noyabr-red.) 2020-ci ildə əldə etdiyi atəşkəs razılaşmasından sonra baş vermiş bir sıra müsbət nəticələri alqışlayır. Bu barədə Aİ-nin yaydığı bəyanatda deyilir. Müsbət məqamlar olaraq cəsədlərin qalıqlarının qaytarılması, müharibədən təsirlənmiş əhaliyə humanitar yardım göstərilməsi vurğulanıb.**

Eyni zamanda, atəşkəsin möhkəmlənməsi də alqışlanıb. Bununla yanaşı, Avropa İttifaqı hər iki ölkə arasında etimadın artırılması və davamlı sülhə doğru irəliləmək üçün yeni səylərin lazım olduğunu bəyan edib. Qurum aqressiv ritorikadan çəkinməyə, həmçinin ərazilərin minalardan təmizlənməsi kimi vacib məsələdə əməkdaşlığa çağırıb. Xatırladaq ki, 44 günlük Vətən müharibəsi nəticəsində ərazi bütövlüyünü bərpa edən Azərbaycan mina təhlükəsi ilə üz-üzə qalıb. Hərbi əməliyyatların yekunlaşmasından 5 ay keçməsinə baxmayaraq, Ermənistan 30 il ərzində işğalda saxladığı ərazilərdə basdırdığı minaların xəritəsini hələ də təqdim etməyib. Rəsmi İrəvan bununla sülh prosesinə mane olmaqla yanaşı, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdış prosesini ləngitməyə və mülki şəxslər arasında daha çox itkilərin olmasına çalışır.

**Mövzuya münasibət bildirən BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Avropa İttifaqının minalanmış ərazilərlə bağlı Ermənistana çağırış etməsini təqdirəlayiq hal hesab etmək olar.** Politoloq qeyd edib ki, müharibə sonrası əlaqələrin bərpası və inkişafı üçün vacib olan şərtlərdən biri də bu məsələdir: "Avropa İttifaqı Qarabağ prosesində digər beynəlxalq qurum və təşkilatlar kimi hər zaman seyrçi mövqeyindən çıxış etdi. Doğrudur, Avropa İttifaqının bu işğalı tanıyan qərarı olmuşdu. Amma real şəkildə bu qərarın icra edilməsinə yönəlik heç bir addım atmamışdı, işğalçı Ermənistana təzyiq etməmişdi. Bu baxımdan, minalanmış ərazilərlə əlaqəli İrəvana edilən çağırış, ümid edirik ki, görüntü xatirinə deyil".

**A.Qasımov vurğulayıb ki, Ermənistan gec-tez bu tələbi yerinə yetirməyə məcbur olacaq:** "Qeyd edim ki, Avropa Parlamentində son əsir məsələsini səsverməyə çıxarmasına rəğmən Azərbaycanda minalanmış ərazilərin xəritəsi məsələsini gündəmə gətirəcək tələblə çıxış etdi. Bundan sonra Avropa İttifaqının bu məsələyə dair çağırış etməsi, hesab etmək olar ki, bu qurumun Azərbaycan tərəfinin haqlı tələbinin eşidildiyi anlamına gəlir. Ermənistan gec-tez bu tələbi yerinə yetirməyə məcbur olacaq. Son günlər Zəngəzurda əsgərlərin silahlarının yığılması, eyni zamanda, Xankəndidən erməni qoşunlarının çıxarılmasını göstərən kadrların yayılması onu göstərir ki, erməni tərəfi Azərbaycan tələblərini yerinə yetirməyə başlayıb. Təbii ki, Azərbaycan tələblərinin yerinə yetirilməsi durumunda erməni əsgərləri də geri qaytara bilər. Bunlar bizim gözümüzdə əsir yox, terrorçudurlar. Avropa İttifaqının çağırışına İrəvandan müsbət cavab gəlməsi gözlənilməndir. Çünki Paşinyan seçki qabağı erməni cəmiyyətini narahat edən bu məsələni həll etməyə məcburdur. Bunun yolu isə Azərbaycanın tələblərini yerinə yetirməkdən keçir".

**Aynurə Pənahqızı**



## Nazir ABŞ-dadır, vəziyyəti ağır olaraq qalır

Səmayə Məmmədova: "Azad Rəhimovun Bakıya gətirilməsi barədə xəbər yalandır"

**Gənclər və İdman Nazirliyi nazir Azad Rəhimovun Bakıya gətirilərək özəl xəstəxanalardan birində süni nəfəs aparatına qoşulması ilə bağlı bəzi saytlarda yayılan xəbərlərə aydınlıq gətirib.**

Bu barədə nazirliyin mətbuat katibi Səmayə Məmmədova "Facebook" səhifəsində məlumat paylaşıb.

"Hörmətli media nümayəndələri, bəzi saytlarda nazir Azad Rəhimovun Bakıya gətirilərək özəl xəstəxanalardan birində süni nəfəs aparatına qoşulması ilə bağlı yazılan xəbər yanlışdır. Azad müəllimin vəziyyəti ağır olaraq qalır. ABŞ-dadır", - S.Məmmədova belə yazıb.

# ABŞ Ermənistanı Rusiyanın "ağzından çıxarmağa" çalışır



Məlum bəyanat Türkiyəyə təzyiqdən çox, Ermənistanda keçiriləcək seçkilərə ünvanlanıb

ABŞ dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığı olub. E.Blinken Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişafına toxunaraq əlaqələrin daha da möhkəmləndirilməsinin önəmini bildirib. Telefon zənginə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycan-ABŞ əlaqələrinin zəngin tarixə malik olduğunu qeyd edib.

Söhbət zamanı Ermənistan-Azərbaycan müharibəsindən sonrakı vəziyyətlə bağlı da fikir mübadiləsi aparılıb. Tərəflər Azərbaycanda demokratik proseslərin inkişafı, insan haqlarının təmin olunması, siyasi pluralizmin qorunması və təmin edilməsinin önəmini vurğulayıblar.

E.Blinken bu il də "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin müvəqqəti dayandırıldığını qeyd edib. Prezident İlham Əliyev bununla bağlı minnətdarlıq bildirib.

Məlum telefon danışığını "Şərq"ə şərh edən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, 907-ci düzəlişlə əlaqədar yeni söz demək çətindir: "Çünki hər kəs bilir ki, bu, 1992-ci ildə tamamilə erməni diasporunun təzyiqi nəticəsində qəbul olunan bir düzəliş idi. Ona görə də düzəliş demək olar ki, işləmirdi. Səbəb isə Azərbaycanın buna qarşı çıxması deyildi. Əslində 907-ci düzəliş ABŞ-ın fəal siyasətini aparmaq üçün bir növ problemlər yaradırdı. Bu düzəliş Amerikanın iqtisadi fəallığını da məhdudlaşdırdı".

**T.Zülfüqarov 907-ci düzəlişin müvəqqəti dayandırılmasının müsbət hal olduğunu vurğulayıb:** "Amma bir məqamı qeyd etmək lazımdır. Telefon danışığı zamanı başqa məsələlərə də toxunuldu. Ölkə başçısı danışıq zamanı Türkiyəni dəstəkləyən mövqeyini ortaya qoydu, Baydenin "soyqırım" bəyanatının qəbuledilməz olduğunu diqqətə çatdırdı. Əslində Baydenin bu bəyanatı səsləndirməsi onu göstərir ki, burada əsas məqsəd Türkiyəyə təzyiqlər yox, ilk növbədə erməni auditoriyası üçün ünvanlanıb.

Çünki bir neçə müddətdən sonra Ermənistanda vacib seçkilər keçiriləcək. Əsas sual isə ondan ibarətdir ki, rəsmi İrəvan gələcəkdə hansı siyasəti həyata keçirəcək? Köhnə ruspərəst siyasətini, yoxsa qərbyönümlü siyasət?

Baydenin "soyqırım" bəyanatında əsas məqsədi Qarabağda məğlubiyyətdən sonra zəifləmiş Ermənistan qüvvələrinə dəstək verməklə ruspərəst qüvvələrlə rəqabət aparmaq idi. Amma amerikalı və azərbaycanlı rəsmilər səsləndiriblər ki, bu bəyanatın hüquqi və siyasi nəticələri ola bilməz. Fikrimcə, bəyanat sadəcə olaraq tarixi təhrif etmək cəhdi idi".

**Yeganə Bayramova**

*"Bu, elə bir formada icra ediləcək ki, proses Qarabağın dağlıq hissəsində yox, Ermənistanla sərhəddə baş versin"*



# Qarabağda təxribat planı hazırlanır

## *Rus əsgərini öldürüb Azərbaycanı günahlandıra bilərlər*

**"10 noyabr razılaşmasının pozulması haqda görünür ki, iyunun 20-nə qədər daha tez-tez danışmalı olacağıq".**

*Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. O, bu barədə daha ətraflı "Şərq"ə danışıb:* "Ermənistanın Baş naziri Nikol Paşinyanın cari ilin aprel ayının 21-də Zəngəzur vilayətinə məlum səfərindən sonra düşmən Azərbaycan-Ermənistan dövlət sərhədində təxribatlar törətdi. Qəribəsi bu idi ki, erməni hərbçilər DSX-nin mövqeləri ilə yanaşı, Ermənistan tərəfdə xidmət aparan Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin bölmələrinin yerləşdiyi mövqeləri də atəşə tutmuşdular. Bu, atəşkəsin pozulmasının İrəvan siyasi mühitinin şantaj edilməsi yolunda əsas vasitələrdən biri olduğunu göstərdi".

*Ekspert ölkəmizə qarşı növbəti təxribatın hazırlandığını düşünür. Onun sözlərinə görə, əgər bu inisidentlər nəticəsində bir rus əsgəri yaralanarsa və ya həlak olarsa, Moskva sərt cavab verəcək. Xüsusilə vurğulanıb ki, 9 noyabr 2020-ci ildə Azərbaycan tərəfindən vurulan rus helikopterinin heyətinin ölümü məsələsi hələ də açıq qalır:* "Yaxın zamanlarda rus əsgərlərinə qarşı mütləq bir silahlı hücum planı hazırlanacaq və elə bir formada icra ediləcək ki, proses Qarabağın dağlıq hissəsində yox, Ermənistanla sərhəddə baş versin. Nəticədə bir neçə rus əsgəri öldürülsün və Azərbaycan tərəfi əsas günahkar kimi göstərilsin. Çox diqqətli olmalıyıq".

**Kənan**

# Ən yaxşısı ictimai qınaqdı

## Şəhidə dil uzadanı küçə süpürməyə cəlb etmək olar





*Sosial şəbəkədə şəhid Xudayar Yusifzadə haqqında nalayiq ifadələr yazan şəxs döyülüb. Hazırda cəmiyyətdə ən çox müzakirə edilən məhz bu hadisədir. Sözsüz, bütün şəhidlər baş tacımızdır. Amma Xudayarı xalqa sevdirən gülərüz çöhrəsi və "Vətən yaxşıdır" mahnısını həzin ifası oldu. Bununla şəhid Xudayar qəlblərdə özünə taxt qurdu. İndi isə şəhidə dil uzadılmasını cəmiyyət qəbul etmədi.*



Məlumdur ki, Fuad Rəsulzadə adlı gənc bir müddət öncə tvitter sosial şəbəkəsində "Xudayar çoxdandır təzə mahnı buraxmır", adlı status yazıb. Bu sözlər sosial şəbəkədə kəskin etirazla qarşılanıb. Sonra isə bir qrup gənc həmin adamı taparaq döyüb. F.Rəsulzadənin bir neçə nəfər tərəfindən təhqiramiz şəkildə döyülməsini əks etdirən video sosial şəbəkələrdə paylaşılıb. Onu kimlərin döydüyü məlum deyil. Şəhidlə bağlı qəbuledilməz paylaşıma yol vermiş şəxslə bağlı cəmiyyətdəki haqlı narazılığı nəzərə alan Daxili İşlər Nazirliyi də sosial şəbəkə istifadəçisi Fuad Rəsulzadənin döyülməsi ilə bağlı yayılan görüntülərə münasibət bildirib. DİN mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev Modern.az-a bildirilib ki, yayılan videogörüntülərdən xəbərdardırlar. "Videogörüntülərdən məlumatlıyıq. Vətəndaşa fiziki təzyiq göstərməklə onu döyməkdə şübhəli şəxslərin müəyyən olunması istiqamətində müvafiq tədbirlər davam etdirilir. İctimaiyyətə əlavə məlumat veriləcək".

Yaxınları hadisə bağlı ilə sosial şəbəkədə bildiriblər ki, Fuad möhkəm döyülüb, başına 4 tikiş qoyulub. O, ilkin həkim müayinəsindən keçib, xoşbəxtlikdən daxili orqanlarında ciddi zədə yoxdur, amma özü hələ ki, danışa bilmir.

Fuad Rəsulzadənin yaxınlarının sözlərinə görə, hücum edənlər bunun Xudayar Yusifzadə ilə bağlı statusla əlaqəli olduğunu bildiriblər.

F.Rəsulzadənin efirlərdə tez-tez göründüyü də məlumdur (təəccüblü deyil - red.). Bəzən aktyor, bəzən qiraətçi kimi. O, ARB TV-də şeirlərini səsləndirib, SPACE TV-də "El bizim, sir bizim" proqramında qonaq olub. Bundan başqa o, "Hekayəm var", "Stand up" şousunda aktyor kimi də səhnə alıb.

**Baş vermiş hadisə barədə fikirlərini "Şərq"ə bildirən sosioloq Elçin Bayramlı qeyd etdi ki, Azərbaycan hüquqi dövlətdir, eyni zamanda milli-mənəvi dəyərlərə yüksək saygı göstərilən ölkədir:**

- Biz hüquqi dövlətdə, həm də həssas cəmiyyətdə yaşayırıq. Azərbaycanda milli-mənəvi dəyərlərə həmişə hörmət olub. Şəhidlər bizim üçün əzizdir, toxunulmazdır. Xüsusilə hazırkı həssas məqamda şəhidlər, qazilər barədə xoşagəlməz ifadələr işlətmək, paylaşımlar etmək, məqsədəuyğun deyil və təbii ki, cəmiyyətdə qıcıq yaradır. Bu, bütün cəmiyyətlərdə belədir. Fikir azadlığı verilir, insanın fikrini sərbəst ifadə etməsi hüququ var, lakin məsələ milli dəyərlərdirsə, ehtiyatlı olmaq və cəmiyyətdə qıcıq yarada biləcək hallara yol verilməməlidir. Fiziki təzyiqin əleyhinəyəm. Hər bir hərəkət qanunla cəzalanmalıdır. Milli-mənəvi dəyərlərin təhqir edilməsinə qarşı xüsusi qanun olmalıdır. Bəzən görürük, tarixi şəxsiyyətlər təhqir olunur, dövlət atributlarına saygısızlıq nümayiş olunur. Bu kimi halların qarşısının alınması üçün müvafiq qanunvericilik bazası olmalıdır ki, hüquqi əsas formalaşsın. Milli dəyərlərə hörmətsizlik edənlərlə bağlı müxtəlif cəza metodlarından istifadə etmək olar. İnzibati cəzalar da mümkündür, cərimələr də. Hətta ictimai qınaq anlaşılsın deyə, belə şəxsləri ictimai işlərə, məsələn, küçə süpürməyə cəlb etmək olar. Amma ağır fiziki təzyiq, zor tətbiq etmək olmamalıdır. Əlbəttə, anlaşılandır ki, şəhidlərlə bağlı belə bir paylaşım təpki ilə qarşılanıb. Amma yaxşı olardı ki, onlar sosial şəbəkədə sərt cavab verəydilər. Qınaq bildirəydilər. Bu adam qəsdən etməyibsə, bəlkə əməlindən peşman olardı. Yox əgər, eyni hərəkəti yenə təkrarlayacaqdısa, deməli, psixi problemi var. Ümumiyyətlə, cəmiyyətdə etiraza səbəb olan hallar xüsusi orqanlar tərəfindən araşdırılmalıdır; bilərəkdənmi edilib, bunu edənin psixi problemi varmı, bəlkə kimlərsə təhrik edib onu və sair. Belə şəxslər cəzalanmalıdır, lakin bunu qanun etməlidir, camaat yox.

**Məlahət Rzayeva**



## O zamana qədər vaksinasiya aparılacaq

### Sentyabrdan ənənəvi təhsilə başlamaq mümkün görünür

**Tanınmış təhsil eksperti Elçin Əfəndi "Şərq TV"-nin "Düzünü deyək" verilişində qonaq olarkən sentyabr ayında əyani təhsilin başlaya biləcəyini söyləyib.**

*"Şərq" xəbər verir ki, o, ölkədəki mövcud durumun ötən illə müqayisədə ənənəvi təhsil üçün daha uyğun olduğunu deyib:* "Birincisi, ötən il vaksinasiya aparılmırdı. İkincisi, 2020-də 500-600 min insan COVİD testindən keçmişdi. Bu gün isə həmin rəqəm 3 milyona yaxındır. Bunun da təxminən 310 mini, yəni testdən keçən əhalinin 10 faizi koronavirusa yoluxub. Bu da çox ciddi rəqəm deyil. Artıq 2020-2021-ci il tədris ili başa çatacaq. O zamana qədər vaksinasiya aparılacaq. Düşünürəm ki, qarşıdakı dövrdə 18 yaşdan yuxarı vətəndaşlar da peyvənd olunacaqlar. Onların da sayını nəzərə alaq. Ona görə ənənəvi təhsilin başlamasına bir manea yoxdur".

**Samirə**

## Xankəndi və Şuşada ali məktəblər tikiləcək

### Bu tarix uzaqda deyil

**"Xankəndi və Şuşada dövrün standartlarına cavab verən ali məktəblər tikiləcək".**

*Bu sözləri "Şərq TV"-nin "Düzünü deyək" verilişinin qonağı, təhsil eksperti Elçin Əfəndi deyib:* "Bu tarix uzaqda deyil. Yaxın beş il ərzində həmin universitetlərin tikiləcəyini düşünürəm. Həmçinin müasir dövrün tələblərinə cavab verən ixtisasların tədris olunduğu ali məktəblərə qəbullar başlayacaq və yüksək tələbat olacaq".

**Kənan**

# Azərbaycanlı həkim Hande Harmancı ilə razılaşmır

*"Bir il ərzində minlərlə səhiyyə işçisi, həmçinin digər peşə sahibləri koronavirusdan həyatını itirib". Bunu Ümumdünya Əməyin Mühafizəsi günü ilə bağlı keçirilən onlayn tədbirdə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib. Onun sözlərinə görə, pandemiya əməyin mühafizəsinin idarə edilməsinin ictimai səhiyyə sistemləri ilə bağlılığını göstərib:*

"COVID-19 zamanı dünyada səhiyyə işçilərinin 23 faizi depressiya və narahatlıq, 30 faizi isə yuxusuzluqdan əziyyət çəkib. Səhiyyə işçilərində intihar riski digər peşə sahiblərinə nisbətən daha yüksəkdir". H.Harmancı bildirib ki, statistikaya əsasən, dünyada aşağı və orta gəlirli ölkələrdə səhiyyə işçilərinin 54 faizi gizli vərəm xəstəsidir.

**ÜST-nin Azərbaycan Nümayəndəliyi rəhbərinin açıqlamaları ilə bağlı Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov həkimlərin böyük risk altında çalışdığını təsdiqlədi, lakin intihar məsələsində H.Harmancı ilə razılaşmadığını dedi:**

- Azərbaycanda təxminən 400 min həkim var. Mən intihar etmiş bir həkim tanımıram, bu haqda eşitməmişəm. Həkimlər hər gün müxtəlif taleli insanlarla qarşılaşır. Faciələr görürlər, gözlərinin önündə ölüm halları baş verir. Bəzən hansısa xəstəni xilas etməyə çalışır, lakin müəyyən səbəblərdən bu, mümkün olmur. Həkimlərin, insan həyatlarını xilas etmək baxımından məsuliyyətləri əlbəttə ağırdır. Bu da insanda depressiya yarada bilər. Lakin həkimlər, bəlkə də digər peşə sahiblərindən daha çox iradəli olur. 2020-ci ildən başlayaraq həyatımıza koronavirusun daxil olması ilə nə qədər insan tələfatları ilə qarşılaşıb bizim həkimlər. Eləcə də dünyadakı həkimlər. Koronavirusdan həyatını itirən həkimlər, tibb personalı olub, lakin mən eşitmədim, görmədim ki, hansısa həkim intihara əl atsın. Həkimlərin yükü çox ağırdır. Xüsusilə reanimasiya həkimlərinin, stasionarda çalışanların. Çünki onlar ağır xəstələrlə birbaşa təmasdadırlar. Müalicə həkimləri də həmçinin. Hər gün nə qədər xəstə qəbul etməli olur. Sizə deyim ki, həkimə müxtəlif səbəblərlə müraciət edənlərin 70 faizi koronavirus xəstəsidir. Gəlir ki, böyrəyimdə problem var, ya ürəkdə, başqa orqanda, müayinə ediləndə, analizlər götürüldükdə məlum olur ki, koronavirus xəstəsidir. Həkimlər üçün belə şəraitdə işləmək əlbəttə ağırdır, çətindir. İnsan gün ərzində nə qədər koronavirus xəstəsi ilə kontaktda olar?! Amma həkimlər arasında intihara meyilliliyi şəxsən mən görməmişəm. Risk başqadır. Məsələn, həkimlərdə psixoloji problemlər yaranır, yaddaş pozğunluğu son illərdə artıb. Bu da gərgin iş şəraiti ilə bağlıdır.

"Həkimlər arasında intihara meyilliliyi görməmişəm"





"Həkimə müxtəlif səbəblərlə müraciət edənlərin 70 faizi koronavirus xəstəsidir. Gəlir ki, böyrəyimdə problem var, ya ürəkdə, başqa orqanda, müayinə ediləndə, analizlər götürüldükdə məlum olur ki, koronavirus xəstəsidir"

**Ş.Məmmədov aşağı və orta səviyyəli ölkələrdə səhiyyə işçilərinin 54 faizinin vərəm xəstəsi olması iddiasına cavab verdi:**

- Vərəm "kasıb xəstəlik" də adlanır. Kasıb ölkələrdə vərəmə yoluxma riski daha artıqdır. Kalorili qida təminatının olmaması, ağır həyat şəraiti vərəmə yoluxma təhlükəsini artırır. Səhiyyə işçiləri də xəstələrlə təmasda olduqlarından yoluxma riski əlbəttə, artır.

**Məlahət Rzayeva**













# "Makarov"dan açılan atəş...

## "Şərq" 13 insanın həyatına qıyan qanlı əllərin izinə düşdü

Tarix 30 aprel 2009-cu ili göstərir. Bakıda günəş doğur, hər kəs işə, məktəbə, universitetə tələsir. Yeni sıradan bir gündür. Ta ki, o ana qədər. Birdən şəhərin mərkəzindən güllə səsləri gəlir. Keçmiş Azərbaycan Dövlət Neft Akademiyasının (indiki ADNSU - red.) "Qaz Neft Mədən" və "Neft Mexanikası" fakültələrinin yerləşdiyi binaya daxil olan şəxs qarşısına çıxan hər kəsə "Makarov" tipli tapançadan atəş açıb. Nəticədə 13 nəfər ölüb, 13 nəfər isə xasarət alıb. Onların içərisində tələbələr, müəllimlər və digər universitet işçiləri də var. Yaralanan tələbələr sırasında xarici vətəndaşlar da olub.

Polis tərəfindən zərərsizləşdiriləcəyini görən silahlı şəxs özünü öldürüb. Sonradan məlum olub ki, o, Gürcüstan vətəndaşı, 1980-ci il təvəllüdlü Fərda Qədirovdur. Onun universitetdə nə qədər güllə sərf etdiyi müəyyənləşdirilməyib. Lakin üzərindən hər biri 40 güllə tutumlu və içərisində 71 güllə olan xüsusi üsulla hazırlanmış 3 ədəd patrondaş, 2 tapança sandıqçası aşkar edilərək götürülüb.

*Faktla əlaqədar Cinayət Məcəlləsinin 120.2.2 (xuliqanlıq niyyəti ilə adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə), 29, 120.2.7 (adam öldürməyə cəhd) və 228.1 (qanunsuz olaraq odlu silah saxlama və gəzdirmə) maddələri ilə cinayət işi başlanıb və sonradan terrorçuluq ittihamı da irəli sürülüb. İstintaq-əməliyyat qrupu yaradılıb.*

2010-cu il aprelin 10-da Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin hökmü ilə Nadir Əliyev, Cavidan Amirov və Nəcəf Süleymanov adlı şəxslər ömürlük həbs cəzasına məhkum edilib. Ariz Qabulov isə 11 il azadlıqdan məhrum olunub. Onlar Gürcüstandan olan azərbaycanlılardır. Terrorizm, qəsdən adam öldürmə, qaçaqmalçılıq, qanunsuz silah və narkotik maddə saxlamaq ittihamları üzrə təqsirli biliniblər.

**Hökm zamanı cinayətlə əlaqələrinin olmadığını bildiriblər**

İstintaqın məlumatına görə isə cinayətin təşkilatçısı Gürcüstan vətəndaşı, erməni təsilli Mardin Qumaşyandır. Onun müttəhimlərə yüklü miqdarda pul vəd etdiyi və terrorçuluğu maliyyələşdirdiyi söylənilib. Qumaşyan Fərda Qədirova 5 min ABŞ dolları məbləğində pul verib, qalanını isə cinayət törədildikdən sonra verəcəyinə razı salıb. Həm də Qədirov tərəfindən 2008-ci il noyabrın 8-də Tbilisidə odlu silah satışı mağazasından aldığı "Makarov" tipli tapança və 200 ədəddən artıq patronların qanunsuz olaraq Azərbaycana keçirilməsi barədə razılığa gəlib. Amma bütün bunları sübut edən dəlillər təqdim edilməyib.

İbtidai istintaq Fərda Qədirovun ruhi xəstə olduğunu müəyyənləşdirib. O, cinayəti törətməzdən əvvəl mobil telefonu ilə video çəkib və bunu Azərbaycan cəmiyyətinə nifrət etdiyi üçün törətdiyini deyib. Qədirov Gürcüstana gəlməzdən əvvəl Rusiyada yaşayıb.

Vəkillər hüquq-mühafizə orqanlarının M.Qumaşyanın Azərbaycana verilməsi məqsədilə İnterpola və Gürcüstan hakimiyyətinə müraciət etmədiyini qeyd ediblər. Qumaşyanın evinə dəfələrlə jurnalistlər yollanaraq, onunla danışıblar. O, bu işlərlə əlaqəsinin olmadığını, Fərda Qədirovu tanımadığını söyləyib. Hazırda isə M.Qumaşyan Gürcüstanda yaşayır və hər hansı istintaq tərəfindən dindirilməyib.

İllər ötüb, akademiyanın adı da dəyişib. Lakin divarlarındakı nalələr, acı hadisənin izləri qalmaqdadır. Olayın niyə və nə üçün baş verdiyi isə məlum deyil. Görəsən, doğrudan da bu, Fərda Qədirovun psixoloji problemlərinin nəticəsi idi? Ya da Qumaşyanın hazırladığı terror aktı? Maraqlıdır ki, hər iki şəxs də məlum cinayəti maliyyələşdirəcək gücdə imiş kimi görünmürlər. Bəs kimdir təqsirkar? 13 həyata qıyan qanlı əllərin sahibləri kimlərdir?

## Mesajlarla dolu terror hadisəsinin üstünü açmaq olardı



**Tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu "Şərq"ə deyib ki, ADNA-dakı terror Azərbaycanın müstəqillik tarixində törədilən səs-küylü, qanlı hadisələrdən biridir:** "Həmin olayların biri aydınlaşmayıb. Hələ 1994-cü ildə xüsusi idarənin rəisi, general Şəmsi Rəhimovla Milli Məclisin birinci müavini Afyəddin Cəlilovun eyni gündə müxtəlif yerlərdə qətlə yetirilməsi, ardınca Ziya Bünyadovun öldürülməsi, general-leytenant Rail Rzayevin qətli, Bakı metropolitenindəki terror aktı və bir neçə hadisələr, o cümlədən ADNA olayı da açılmamış cinayətlər silsiləsindədir. Sadalanan hadisələrin qaranlıq qalmalarının səbəbi isə xaricdən və siyasi sifarişli olmalarıdır. Güclü dövlət tərəfindən təşkil edilib və əsl cinayətkarların üzə çıxarılmasında Azərbaycanın hüquq-mühafizə orqanları səy göstərməyiblər. Ona görə ki, bu qətl hadisələri istintaq-tədqiqat məsələsi deyil, siyasidir. İlk növbədə siyasi qərar olmalıdır. Əminəm ki, o zaman rahatlıqla həmin cinayətlər açılar, sifarişçiləri tapılar. Qətllərin əksəriyyəti isə xaricdən sifariş olunmaqla yanaşı daxildəkilərin əli ilə həyata keçirilib. Bu da işləri bir qədər çətinləşdirir. Sifarişçilər də bunu nəzərə alıb, daxili icraçılar vasitəsi ilə reallaşdırıblar. Neft Akademiyasında baş verən terror aktı da onlardan biridir. Dəfələrlə demişəm, ADNA-da törədilən terrorun üstünün açılması üçün keçmiş Milli Təhlükəsizlik Nazirliyinin rəhbərlərindən - Eldar Mahmudovdan, Hilal Əsədovdan "yapışmaq" lazımdır. Təbii ki, onlar dindirilərkən sifarişçilərin kim olduğunu da söyləyəcəklər. Dəfələrlə bu haqda yazmağıma baxmayaraq, nə Eldar Mahmudov, nə də onun müavini mənə etiraz edib, məhkəməyə veriblər. Səbəbi çox sadədir, bilirlər ki, cinayətin təşkilində iştirakları olub, onlara qarşı faktlar, sübutlar var. Həm də hadisənin canlı şahidləri mövcuddur. 10 nəfərin adını sadalayaram ki, cinayətin kimlər tərəfindən törədildiyini yaxşı bilirlər. Bu qətllər Azərbaycan dövlətinə təzyiq xarakteri daşıyırdı. Məsələn, həmin dövrdə Azərbaycanla Avropa arasında müxtəlif sahələrdə əməkdaşlıq sazişinə, enerji iş birliyinə hazırlıq gedirdi. Eyni gün ölkə başçısının təyyarəsi Brüsseldən qayıdırdı və onun Bakı hava limanına endiyi zaman, təxminən həmin dəqiqələrdə terror aktı törədildi. Araşdırmalar göstərdi ki, bu, təsadüf deyildi. Mesajlarla dolu terror hadisəsidir. Bütün bu cinayətlərdə günahsız insanlar şərlənərək həbs olunublar, əksəriyyəti hələ də məhkumdur. Törədənlər, sifariş edənlər, taladıqları milyardlarla, 100 milyonluq villalarda yaşayırlar. Keçmiş MTN-in 20-dən çox əməkdaşı mühakimə olunub, rəhbərləri isə bir ay belə həbs cəzası almadılar. Bunun özü də müəmmalıdır. Bu olayların arxasında nüfuzlu, güclü xarici sifarişçilər olduğundan nəinki cinayətlər açıldı, onlar başqa cinayətlərinə görə də mühakimə olunmadılar. Təkrar edirəm, MTN rəhbərlərinə bir kəlmə də deyilmədi. Bunun səbəbi nədir? Nə qədər ki, cəzasızlıq mühiti hökm sürür, bu cinayətlər də açılmayacaq".

### Sifarişçilər bu qətliamı daxili icraçılar vasitəsi ilə reallaşdırıblar...

**Keçmiş polis rəisi Mahmud Hacıyev isə məsələyə bir neçə kontekstdən yanaşılmalı olduğunu düşünür:** "Terrordan hansısa ölkə sığortalanmayıb. Demək olmaz ki, niyə, nə səbəbdən bizdə oldu? Hansısa gündə, saatda istənilən ölkədə baş verə bilər. Məsələn, Amerikada da, Böyük Britaniyada da, Almaniyada da, Fransada da terror aktları müşahidə olunub. Bizdə də baş verdi. Hadisəni törədən isə sonda özünü öldürdü. Sağ ələ keçmədi, diri tutulsa, daha müəyyən açıqlamalar olardı. İstintaq apardılar və belə qənaətə gəlindi ki, həmin adamın psixi problemləri var imiş. Əvvəlcədən də hadisəyə hazırlaşıb. Lakin bir az sirli məsələlər qaldı".

Politoloq Azər Rəşidoğlunun fikrincə isə bu hadisədə müəmmalar çoxdur: "Milli Təhlükəsizlik Nazirliyinin ləğv olunması, Eldar Mahmudovun tutduğu vəzifədən uzaqlaşdırılması, Elçin Quliyev və İlqar Əliyevin həbsi məsələnin yenidən araşdırılmasını tələb edir. O vaxtlar İlqar Əliyevin hansısa formada bu cinayətdən xəbərdar olduğunu da iddia edirdilər. Düşünürəm ki, burda həddindən artıq müəmmalar və cavabı tapılmayan suallar mövcuddur. Həmin məsələnin tədqiqatına ehtiyac duyulur, jurnalist araşdırması və ictimai nəzarətin olması vacibdir".

Keçmiş milli təhlükəsizlik nazirinin müavini Sülhəddin Əkbər deyib ki, ADNA terroru cəmiyyətimiz üçün ağır hadisə idi: "Əslində ölkəmizin geoiqtisadi maraqları ilə əlaqəlidir.

(Davamı səh.10)

# "Makarov"dan açılan atəş...

## *Mesajlarla dolu terror hadisəsinin üstünü açmaq olardı*

*(Əvvəli səh: 9-də)*

O zaman Azərbaycan qazının dünya bazarlarına çıxarılması layihəsinə qarşı törədilən terror aktı idi. Burda xarici iştirak olduğuna görə, istintaq sona qədər, obyektiv şəkildə aparılmadı. Həm xarici faktorlar, həm də "beşinci kolon" ciddi rol oynadı. Xalqımız da bu günə qədər terror hadisəsinin təşkilatçıları üzə çıxarılmadığına görə narazıdır və narahatlığını da hər zaman dilə gətirir. Bu işin açılmamasının səbəbi qeyd etdiyim kimi, xarici xüsusi xidmət orqanlarının iştirakı və onların Azərbaycandakı uzantılarının araşdırmalara mane olmasıdır".






**Gəlin bir də həmin günün fəryadını, olayın şahidi, ADNSU-nun (ADNA - red.) 2010-cu il məzunu Elnur Eyvazovdan eşidək. Deyir ki, o vaxt 20-21 yaşlarında gənc tələbə olub:** "Aprelin 30-u başqa günlərdən fərqlənmirdi, universitetə getdik, dərsə girdik. Birdən partlayış səsləri eşitdik. Gənc idik, hərbidə olmamışdıq deyə, əvvəlcə başa düşmədik. Müəllimimiz isə şübhələndi, dedi ki, atəş səsi gəlir. İkinci dəfə bu sözü təkrarlayanda dəhlizə çıxdıq. Gördük ki, tələbə yoldaşımızın biri yerdə uzanıb, silahlı bir şəxs dəhliz boyu irəliləyir. Əvvəlcə onun psixi problemli tələbə olduğunu düşündük. Universitetin dəhlizini sona qədər gedəndə, dalana dirənir. Cinayətkar isə bunu bilmirdi. Ona görə dəhlizin sonundan geri qayıtdı. Mən də tələbə yoldaşlarımla birgə ona baxırdım, anlamırdıq ki, bizə də atəş aça bilər. Sonra güllə atmağa başladı, biz də terrorçu olduğunu görüb, auditoriyaya girdik. Dərhal müdafiə mexanizminə keçdik. Bir tələbə yoldaşımız qaçdı ki, qapını bağlasın. Bu zaman terrorçu onu boğazından vurdu. Xoşbəxtlikdən o ölmədi, huşunu itirdi. Silahlı şəxs əlini qapıdan salıb, sinifə atəş açdı. Gülləleri fasiləli şəkildə atdığı üçün biz özümüzü, tələbə yoldaşlarımızı qoruya bilirdik. İki yoldaşımız orda xəsarət aldı, biri yüngül, digəri ağır yaralanmışdı. Qeyd edim ki, o, auditoriyalara girmirdi, aşağı mərtəbədən yuxarıya doğru qalxır, dəhlizdə kimi görsə, vururdu. Bizim sinif isə dekanın otağı ilə yanbayan idi və ora eyvan vasitəsilə keçmək olurdu. Planlaşdırdıq ki, bir qismimiz ağır yaralılarla qalaq, digərləri isə daha təhlükəsiz yerə getsin. Belə də etdik. Biz 3-4 nəfər vəziyyəti ağır olan yoldaşlarımızın yanında durduq. Elə orda öləcəyimizi düşünürdük. Sonra o birilər kömək üçün geri qayıtdılar və bizi də çıxartdılar. Yenə də atəş səsləri gəlirdi. O an silahlı şəxs rus bölməsində oxuyan tələbələrə atəş açırmış. Hətta bir tələbə yoldaşımız elə bilib ki, o, zarafat edir. Əlini terrorçuya uzadıb," neynirsən?" deyəndə, vurulub. Yaxın məsafədən güllə başından dəyib, həmin dəqiqə dünyasını dəyişib".

*E.Eyvazov onu da əlavə edib ki, qatil çox sərrast güllə atırmış:* "Yanına kimsə yaxınlaşa bilmirdi. Onun üzərinə hücuma keçmək mümkün deyildi. Xüsusi xidmət orqanları da dərhal gəldilər. Onlar belə terrorçunu tezliklə zərərsizləşdirə bilmədilər. Onu mərtəbə-mərtəbə izləyirdilər. F.Qədirov isə sonuncu mərtəbədə damdan çıxa biləcəyini fikirləşirdi. Dam da bağlı idi, qaça bilmədiyi üçün özünü öldürdü. Mən onu bir az uzaqdan gördüm. Məsələn, arada sual verirlər ki, doğrudan da Fərda Qədirov idimi və neçə nəfər olublar? Bəli, təkcə o idi. Bir də ki, onun etdiyini yalnız xüsusi hazırlıqlılar bacara bilərdi. Çünki tapançadan düzgün istifadə edirdi, sərrast atırdı. Biz də özümüzü və yoldaşlarımızı atəş altından çıxarmaq missiyasını müvəffəqiyyətlə yerinə yetirdik. Polislərlə geri qayıdıb, yaralıları təxliyyə edirdik. Orda həlak olan, qatıq satan bir xala vardı, onun meyitini biz daşıdıq. Zənn etdim ki, xala yaşayır, demə ölübmüş. O zaman gənc tələbələrin çətin bir stiuasiyada operativ davrandıqlarını gördüm. Biz yaralılarla məşğul olanda, digər dostlarımız qapıya partaları düzdü ki, terrorçu içəri girəndə ləngisin. Ona görə itkimiz də az oldu. Əliyalın şəkildə vəziyyətdən çıxa bildik. Müəyyən bir müddət psixoloji təsirləri qaldı. Pisxologiyamız tamam korlanmadı, sadəcə şok yaşadıq, sonra həyatımıza davam etdik".

**Samirə Ərəblinski**

---



# Danışıqlar Xamneyinin razılığı ilə başlayıb

## *ABŞ-ın İranla başlatdığı nüvə danışıqları prosesində tərəflər ortaq məxrəcə gələ bilər*

İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərif ölkəsinin xarici siyasəti ilə bağlı mətbuata sızan səs yazısına aydınlıq gətirmək üçün parlamentə çağırılıb. Bu barədə İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komitəsinin sözçüsü Əbülfəzl Amuli bildirib. O qeyd edib ki, nazirə səs yazısının yayılmasına aydınlıq gətirməsi üçün komitənin növbəti iclasına gəlmək təklif edilib.

Mövzuya münasibət bildirən MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında deyib ki, Cavad Zərifin Rusiya nüvə sazişinə qarşı çıxmaqla bağlı səs yazısı mətbuata məqsədli şəkildə ötürülüb: "Fikrimcə, ABŞ-ın İranla başlatdığı nüvə danışıqları prosesində tərəflər ortaq məxrəcə gələ bilər. Çünki bu danışıqlar İran rəhbərliyi, xüsusilə ali dini rəhbər S.Ə.Xamneyinin birbaşa razılığı ilə başlayıb. İran bu danışıqlara ehtiyac duyur. Həmçinin, o, ağır sosial-iqtisadi vəziyyətdən çıxmaq üçün sanksiyaların yumşalmasına da çalışır. Çünki İranda getdikcə inflyasiya inkişaf edir. Hazırkı prosesdə isə nüvə anlaşmasına Rusiya mane olmağa çalışır. Ona görə də, İran XİN rəhbəri Cavad Zərifin Rusiya nüvə sazişinə qarşı çıxmaqla bağlı səs yazısı mətbuata məqsədli şəkildə ötürülüb. Məlum oldu ki, nüvə danışıqlarında təmsil olunan Rusiya üzdə anlaşmanı dəstəkləsə də, arxa fonda İrana təzyiq edir ki, anlaşmaya getməsin. Göründüyü kimi, Rusiya masada bir təklif verir, arxa planda verdiyi təklifə qarşı çıxır".

> "Tehran ağır sosial-iqtisadi vəziyyətdən çıxmaq üçün sanksiyaların yumşalmasına da çalışır"

**Politoloq qeyd edib ki, ABŞ-la İran nüvə anlaşmasına gəldikdən sonra Rusiyaya qarşı sanksiyalar daha da genişlənəcək:** "Hətta neft və qaz alışı dayandırıla bilər. Əvəzində İrandan neft-qaz alınması mümkündür. Ümumiyyətlə, regionda çox ciddi gərgin proseslər gedir. Hesab edirəm ki, Azərbaycan təhdidlərə hazır olmalı və Türkiyə ilə öz hərbi imkanlarını dərinləşdirməlidir".

**Aynurə Pənahqızı**

---

# Yeni əsrin müharibəsi reallığa çevrilir

## *Qırğızıstan və Tacikistan arasında qarşıdurma su mənbəyi uğrunda mübarizədən qaynaqlanır*



Qırğızıstan və Tacikistan sərhədində hər iki ölkənin silahlı qüvvələri arasında atışma olub. Hadisə İsfara şəhəri yaxınlığında İsfara çayının yuxarı axınındakı "Qolovnaya" su paylama məntəqəsinin yerində baş verib. Toqquşma nəticəsində bir Qırğızıstan vətəndaşının öldüyü, 16 nəfərin isə yaralandığı bildirilir.

Tacikistan tərəfi isə üç vətəndaşın güllə yarası aldığını qeyd edib. Hər iki tərəfdən yerli sakinlər qarşıdurmada iştirak edib. Hər iki dövlət məsuliyyəti birbirinin üzərinə atır. Bölgədə daim qarşıdurmalar baş verir. Buna səbəb hər iki ölkə sərhədində delimitasiya olunmamış ərazilərin mövcud olmasıdır.

**Mövzu ilə bağlı danışan politoloq İlyas Hüseynov vurğulayıb ki, bu münaqişənin özəlliyi ondadır ki, su mənbəyi uğrunda hər iki tərəf mübarizədədir. Politoloq qeyd edib ki, bu cür permanent münaqişə ocaqları dünyanın siyasi xəritəsində onlarladır:** "1924-1927 və 1989-cu il xəritələrinə görə, bu obyekt tamamilə Tacikistana məxsusdur. Və 1968-ci ildən bəri Tacikistan, Qırğızıstan və Özbəkistanın sərhəd bölgələrinin suvarılması və su təchizatı üçün istifadə edilib. Münaqişənin özəlliyi bundadır ki, su mənbəyi uğrunda hər iki tərəf mübarizədədir. Bizim Vətən müharibəsinin də "Suqovuşan" və "Sərsəng" uğrunda mübarizə kimi dəyərləndirənlər vardı. Digər tərəfdən, Ağbənd məntəqəsi işğaldan azad olunduqdan və 132 kilometrlik Azərbaycan-İran sərhədinə Silahlı Qüvvələrimiz tərəfindən nəzarəti bərpa etdikdən sonra "Xudafərin" və "Qız Qalası" su rezervuarlarından ikitərəfli istifadəni əldə etmək mümkün oldu. İşğaldan azad olunan çoxsaylı çaylar üzərində indi də SES-lərin tikintisi və bərpa olunan enerji istiqamətində intellektual həll variantları tətbiq olunur. Yeni əsrin müharibələri ilə bağlı mühazirələrimizdə dediklərimiz artıq reallığa çevrilməkdədir".

**Aynurə Pənahqızı**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# Azərbaycan mediası niyə qazana bilmir?

*"Çünki media hər şeydən öncə insanların, ictimaiyyətin, auditoriyanın etimadını qazanmalıdır"*



İnsanların işdə və ya istirahətdə olmasından asılı olmayaraq fasiləsiz olaraq müraciət və istifadə etdikləri qəzetlər, jurnallar, kitablar, radio, televiziya, internet və s. kimi informasiya mənbələri mövcuddur. Bu kommunikasiya vasitələri artıq müasir cəmiyyətin ən aparıcı və mühüm sahəsindən birinə çevrilib. Qeyd edək ki, kütləvi media müasir cəmiyyətdə ilkin informasiya istehsalçısı kimi özünə mühüm yer tutmaqla yanaşı, həm də informasiya cəmiyyətinin formalaşmasında xüsusi rola malikdir.

Bu günləri bir çox müasir mediasistemləri mövcuddur. Bu müasir mediasistemin strukturuna və əsas tərkib elementlərinə həm ənənəvi periodik və qeyri-periodik nəşrləri aiddir. Həmçinin elektron nəşrləri, audio-video xidmətləri və məhsulları, radio-televiziya verilişlərini hazırlayan müəssisələr, həmin xidmətləri təqdim edən infrastruktur, həm də İKT-nin, internetin geniş yayılması ilə əlaqədar digər elektron vasitələr, texniki sistemlər, şəbəkələr və texnologiyalar daxil etmək olar. Bu faktdır ki, artıq müasir media cəmiyyətdəki struktur dəyişmələrində müəyyən təsirə malikdir. Çünki mediasistem inkişaf edərək müstəqil bazar iştirakçısına çevrildikcə informasiya bolluğu şəraitində zəruri informasiya mallarının və xidmətlərinin axtarılması, tapılması, yeni texnologiyaların işlənilməsini zəruri edir. İKT ilə əlaqəli yeni media məhsul və xidmətlər köhnələrlə müqayisədə müəyyən kommersiyalaşma xüsusiyyətlərinə malikdir. Eləcə də İKT-yə müxtəlif səviyyəli çıxış imkanlarının olması media məhsullarının reallaşdırılmasında yeniliklər yaranmasına səbəb olur. Nəticə etibarı ilə mediasistem yeni cəmiyyətin inkişaf faktoru kimi çıxış edir. Artıq müasir İKT vasitələri medianın insanların ictimai-siyasi və mədəni həyatına təsirini əhəmiyyətli şəkildə artırır. İKT-nin, xüsusən, internetin intensiv və sürətli inkişafı və geniş tətbiqi nəticəsində media sahəsində köklü dəyişikliklər baş verir. Yəni ənənəvi fəaliyyət sahələri transformasiyaya uğrayır. İnternet vasitəsilə medianın ənənəvi analoqlarına uyğun olaraq internet-qəzet, internet-jurnal, internet-informasiya agentliyi, internet-radio, internet-televiziya, Web-portallar və s. kimi yeni media vasitələri formalaşır. Bu da iqtisadiyyatda yeni bazarın, yəni media iqtisadiyyatının formalaşmasına təkan verir. Qeyd edək ki, media iqtisadiyyatı öz növbəsində informasiya cəmiyyətinin nüvəsini təşkil edən informasiya iqtisadiyyatının əsas istiqamətlərindəndir. ABŞ tədqiqatçısı D.Smayt auditoriyanı mediasistemin əmtəəsi hesab edirdi. O qeyd edirdi ki, həmin auditoriyanı cəlb etmək hesabına "media-auditoriya-reklamçılar" triadasının işini uğurla həyata keçirmək olar. Bu gün reallıqdır ki, qlobal informasiya cəmiyyətində artıq informasiya və bilik əmtəəyə çevrilməkdədir.

Müasir dünya media təcrübəsinə nəzər yetirdikdə görürük ki, dünya kütləvi informasiya vasitələrinin özlərinin sərbəst bazar gəlirləri mövcuddur. Ümumdünya Qəzet və Xəbər Yayımçıları Assosiasiyasının (WAN-IFRA) hesabatında bildirilib ki, 2020-ci ildə dünyada kütləvi informasiya vasitələri sənayesinin gəlirləri 112,4 milyard dollara çatıb. Qeyd olunur ki, xəbər yayımçılarının gəlirləri illik müqayisədə 11 faiz azalıb. Çap reklam sahəsi daha çox ziyan çəkib. Bu sahədə gəlirlər 19,5 faiz azalıb. Çap nəşrlərinin gəlirləri 13 faiz azalma göstərib. Eyni zamanda, KİV-lərin 17 faizi 2020-ci ildə gəlirlərinin artdığını bildirib. Rəqəmsal mətbuatın auditoriyası 36 faiz artıb. Göründüyü kimi, artıq dünyada rəqəmsallaşma informasiya formalaşmaqdadır. Təbii ki, bu sahədən gələn gəlirlər də artmaqdadır. Amma əfsuslar olsun ki, Azərbaycanda kütləvi informasiya vasitələri biznes strukturlarına çevrilməkdə bir çox çətinliklər çəkirlər. Media ekspertləri də media sahəsində reklam məsələsinin çox həssas olduğunu deyirlər. Onların fikrincə, reklam sifarişçisi məhsulunun cəmiyyətdə daha geniş şəkildə yayılmasını arzulayır. Bunun üçün daha populyar vasitələri seçir. Yəni hansı vasitə daha çox yaya bilirsə, insanlar hansından məlumatı, reklamı daha çox ala bilərlərsə, şirkətlər də ona üz tuturlar. Qardaş ölkə Türkiyədə dövlətin verdiyi reklamların paylaşılması müəyyən mexanizm əsasında reallaşır. Digər xarici ölkələrdə isə reklam müəyyən bir şuraya verilir. Şura da qəzetlərin populyarlılığına, tirajına görə reklamı onlar arasında yayır. Azərbaycanda isə vəziyyət tam fərqlidir. Ölkəmizdə özəl televiziyalar, agentliklərdən fərqli olaraq digər mətbuat orqanlarının reklam bazarı azdır və yaxud da sıfır səviyyəsindədir. Bəs, bu problemin kökü hardan qaynaqlanır? Onun həlli yolları nələrdir?

**Mövzu ətrafında "Şərq" olaraq media eksperti Zeynal Məmmədli ilə söhbətləşdik.**

**Media eksperti hesab edir ki, ilk növbədə ölkəmizdə media sahəsində azad, sərbəst bazarın formalaşmasına çox ehtiyac var:** "Bu günləri ölkəmizdə müstəqil biznes fəaliyyəti olmalıdır. Nə qədər ki, iqtisadiyyatda sərbəst bazar yalnız illüziya kimi ortadadır, medianın reklam problemi hər zaman olacaq. Fikrimcə, reklam olduqda medianın müstəqillik iştahası da artacaq. Nəticədə pul qazanmağa başlayan mətbu orqan gözünü kiminsə cibinə dikməyəcək, hansısa qrupların əlində alətə çevrilməyəcək. Bir faktı qeyd edim ki, media çox spesifik sahədir. Çünki media hər şeydən öncə insanların, ictimaiyyətin, auditoriyanın etimadını qazanmalıdır. Etimad olanda təbii ki, o zaman reklam da olacaq. Media spesifik sahə olduğu üçün çox zaman hökumətin, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və bütövlükdə cəmiyyətin bəzən vaxtlar toqquşan maraqları burada öz əksini tapır. Medianın əsas kriteriyası müstəqil olmaqdır. Sual yarana bilər ki, ölkəmizdə media nə dərəcədə müstəqil olacaq? Yəni bir güvənli media orqanı olaraq bazardan yalnız auditoriya hesabına pul qazana biləcəkmi? Hesab edirəm ki, bu yalnız medianın ayrı-ayrı koorparasiyalardan müəyyən məbləğdə vəsait almayacağı təqdirdə ola bilər. Bax, o zaman onların fəaliyyətində şəffaflıq olacaq. Həmçinin koorparasiyalardan alırsa belə, nə üçün alır? Bütün bunlar dəqiq bilinəcək. Bəs, bütün bunlar nəyi şərtləndirir? Təbii ki, sərbəst bazara".

**Z.Məmmədli vurğulayıb ki, sərbəst bazara keçid zamanı jurnalistika fəaliyyətinin peşəkarlığına xüsusi önəm verilməlidir:** "Burada ən ciddi məsələlərdən biri jurnalistikanın fəaliyyətinin peşəkarlığıdır. Hesab edirəm ki, bu, həmin media orqanının nüfuz qazanmasında önəmli rola malikdir. Amma təbii ki, burda da maddiyyat önəmlidir. Çünki bu olmadıqdan sonra fəaliyyətindən necə maddi gəlir əldə edəcəyi sual altındadır. Sual yarana bilər ki, belə tərzdə necə öz fəaliyyətini maliyyələşdirəcək? Ona görə də səbəbi bazarda axtarmaq lazımdır. Çünki bu günləri ölkəmizdə bazar sərbəst deyil. Ancaq bazar sərbəst olduqda kommersiya strukturları istər-istəməz mediadan reklam vasitəsi kimi istifadə edəcək və medianın sərbəst fəaliyyətində maraqlı olacaq. Məsələn, bir şəxs adi bir dülgərdir. Onun daha çox tanıdılması üçün hardasa elan verməyə ehtiyac var. Bu günləri şahid oluruq ki, sosial şəbəkələrdə bir çox adamlar öz fəaliyyətini tanıtmaqla məşğuldur. Bunlar sayəsində onlar özlərinə oxucu auditoriyası əldə edir və nəticədə müəyyən məbləğdə vəsait qazanırlar".

**Z.Məmmədli əlavə edib ki, sosial mediada ayrı-ayrı şəbəkələrin fəaliyyəti heç də peşəkar medianın fəaliyyətini ikinci plana ata bilməz:** "O baxımdan hesab edirəm ki, peşəkar media etibarlı informasiya qaynağı olmalıdır. Bu günləri sosial şəbəkələr subyektiv informasiyalarla doludur. Yəni yanlış-doğru informasiyalar üstünlük təşkil edir. Əslinə qaldıqda isə o təbliğatdır. Buna görə də mediada doğru məlumatların daha çox üstünlük təşkil etməsində fayda var. Çünki media auditoriyanı məlumatlandırır və əhali özü qərar verir. Nəyi bəyənir, nəyi yox? Bu günləri digər ölkələrin mediasından fərqli olaraq çox təəssüflər olsun ki, biz hələ də bilmirik ki, hardan maddi qaynaq tapaq. Bilmirik ki, Azərbaycan mediasında ayrı-ayrı televiziyalar reklamdan nə qədər qazanır? Yəni KİV-lərin reklam gəlirləri haqqında heç ümumi təsəvvürlərimiz belə yoxdur. Qeyd edim ki, dünyanın hər yerində medianın əldə etdiyi gəlir satdığı məhsul deyil, əslində aldığı reklamdır. Dünya praktikasında mətbuatın gəlirlərinin çox əhəmiyyətli kəsimi reklam gəlirlərinin payına düşür. Tutaq ki, Almaniyada medianın gəlirlərinin 40 faizi reklam hesabına olur. Reklam faizi 50-60 faiz olan ölkələr də var. Bu məsələlər ölkəmizdə də şəffaf olmalıdır. Bu günləri Azərbaycan jurnalistinin orta maaşını və qonorarının həcmini dünya ölkələri ilə deyil, hətta Qafqazla müqayisə etdikdə belə, Gürcüstandan çox aşağıdır. Gəlin bir məsələni də nəzərə alaq. Ucuz xəbər hazırlayan jurnalist nə dərəcədə dolğun xəbər hazırlaya bilər? Qeyd edim ki, sadəcə bir xəbəri hazırlamaq üçün jurnalist nəqliyyata nə qədər pul xərcləməli, kimlərə görüşməlidir. Yəni ümumilikdə, bu sahədə problemlərimiz çoxdur. O baxımdan hesab edirəm ki, Azərbaycan mediasının gələcəyi sərbəst bazarla təchiz olunmalıdır. Sərbəst bazar sayəsində ölkə mediasında rəqabət mühiti formalaşacaq. O zaman da reklam şirkətləri media təşkilatlarının arxasındakı kütləni görəcək və mallarını mətbuat vasitəsi ilə yaymaqda maraqlı olacaqlar".

> "Fikrimcə, reklam olduqda medianın müstəqillik iştahası da artacaq. Nəticədə pul qazanmağa başlayan mətbu orqan gözünü kiminsə cibinə dikməyəcək, hansısa qrupların əlində alətə çevrilməyəcək"

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Tehran əvvəlki Tehrandır, dəyişməyib



*İranın məqsədi yenə də Ermənistandan Türkiyə və Azərbaycan əleyhinə istifadə etməkdir*

İranda qondarma erməni soyqırımının növbəti ildönümü qeyd edilib. Beləliklə, rəsmi Tehran öz xislətini bir daha ortaya qoydu və göstərdi ki, onun üçün dostluq anlayışı sadəcə sözdədir. Əməldə isə dediklərinin tam əksini icra edir.

**İranın son addımı barədə "Şərq"ə danışan politoloq Sədrəddin Soltanın fikrincə, bu, təəccüblü deyil:** "Bu, ilk belə hal deyil. Güney Azərbaycanın Culfa şəhərində hər il Ermənistanın ənənəvi tədbirlərindən biri keçirilir. Həmçinin Ermənistan Baş naziri Nikol Paşinyanın Tehrana səfəri zamanı "Ararat" idman stadionunda "Qarabağ Azərbaycandır!" şüarı yazılmış plakatın nümayişi, 44 günlük müharibədən əvvəl Qarabağdakı ermənilərə yanacaq daşınması, savaş dövründə tərəflər arasındakı isti münasibəti və s. nəzərə alsaq, budəfəki addımı da təbii qarşılamalıyıq. Mövcud hakimiyyətdən ancaq bunu gözləmək olar. Nəzərinizə çatdırım ki, son tədbirdə İranın müxtəlif rəsmi şəxslərinin, o cümlədən informasiya və kəşfiyyat naziri Əli Yunisinin iştirak etməsi də təəssüfləndirici məqamdır. Eyni zamanda keşişlərin geyimlərində qondarma rejimin bayrağındakı işarələrin təsviri göstərir ki, İran hakimiyyəti Qarabağın Ermənistana aid olduğunu təsdiqləyir. Beləliklə, separatçılarla və onları dəstəkləyənlərlə həmrəy olduğunu göstərir. İranın İsraildəki həqiqi soyqırımı deyil, saxta faciələri tanıması mövcud iqtidarın məsələlərə ikili standartlardan yanaşdığını nümayiş etdirir".

**S.Soltan, həmçinin rəsmi Tehranın "qara sevda"sının hardan qaynaqlandığını söylədi:** "İranda dini konstitusiya var. Orada dini azlıqlara azadlıq verilməsi barədə xüsusi müddəalar əksini tapıb. İndi rəsmi Tehran bu hərəkətləri ilə dini azlıqlara çox böyük imtiyazlar verdiyini göstərmək istəyir. Hərçənd xristianlığı qəbul edən müsəlmanlar təqib olunurlar. Deməli, İran hakimiyyəti dini azlıqları müdafiə etmək istəyəndə də məsələyə ikili standartlardan yanaşır. Çünki əsas məqsəd Ermənistandan Türkiyə və Azərbaycan əleyhinə istifadə etməkdir. Eyni zamanda rəsmi Tehran erməni lobbisindən öz xeyrinə yararlana biləcəyini düşünür".

**Kənan**

## Ermənistan Zəngəzurda neytral zona yaratmağı təklif etdi



**Zəngəzurda neytral zonanın yaradılması gələcəkdə burada baş verə biləcək hadisələrin qarşısını almağa imkan verəcək.**

Sputnik Ermənistan-ın məlumatına görə, bu açıqlama ilə Milli Təhlükəsizlik Xidmətinin direktor müavini, general-leytenant Stepan Melkonyan çıxış edib.

"Hər iki tərəfdən, xüsusilə də, bölgə sakinləri ilə digər tərəfin əsgərləri arasında təmasın istisna ediləcəyi neytral zona olmalıdır", - deyə Melkonyan bildirib.

*Onun sözlərinə görə, məlum səbəblərdən delimitasiya və demarkasiya aparılmazdan əvvəl təhlükəsizlik barədə danışmağın yeri yoxdur.*

"O zamana qədər hadisələrin qarşısının alınacağını söyləmək sadəcə fantaziyadır", - deyə direktor müavini qeyd edib.

## Xəzər dənizində zəlzələ olub



**Xəzər dənizində zəlzələ qeydə alınıb.**

Respublika Seysmoloji Xidmət Mərkəzindən bildirilib ki, zəlzələ yerli vaxtla saat 17:21-də olub.

*Zəlzələnin maqnitudası 3.2, dərinliyi 55 kilometrdir.*

## "Dövlətin ayırdığı vəsait yetərli deyil"

"Bu vəsaitlə sadəcə təşkilatı ayaqda saxlamaq mümkündür"



"Partiyalara qoşulan vətəndaşların sayı çox azdır. Hansısa iş adamı, biznesmen də siyasi təşkilata üzv olaraq onu maliyyələşdirmək marağında deyil"

**2021-ci ilin ikinci rübü üzrə 10 siyasi partiyaya vəsait ayrılıb.**

Maliyyə Nazirliyindən bildirilib ki, Milli Məclisdə təmsil olunan 10 siyasi təşkilata ümumilikdə 948,4 min manat məbləğində vəsait ödənilib. Vəsaitin ayrılması "Siyasi partiyalar haqqında" qanunun 17-1-ci maddəsinə uyğun aparılır. Məlumat üçün deyək ki, cari ilin birinci rübündə də partiyalara vəsait ödənilib. İlin əvvəlində siyasi qurumlar ümumilikdə 857,5 min manat məbləğində pul alıblar. Siyasi partiyalara maliyyə yardımının göstərilməsi üçün 2021-ci ilin dövlət büdcəsindən 4 milyon manat vəsait nəzərdə tutulub. Ayrılan vəsait rüblər üzrə partiyalara təqdim olunur.

**Parlamentdə təmsil olunan Milli Cəbhə Partiyasının sədri, millət vəkili Razi Nurullayev "Şərq"ə deyib ki, Azərbaycanda partiyaların üzvlük haqqından, kənardan gələn ianələrdən formalaşması üçün siyasi şərait yoxdur. Deputatın sözlərinə görə, insanlarımızın könüllü olaraq hansısa siyasi partiyaya pul köçürmək həvəsləri yoxdur:** "Partiyalara qoşulan vətəndaşların sayı çox azdır. Hansısa iş adamı, biznesmen də siyasi təşkilata üzv olaraq onu maliyyələşdirmək marağında deyil. Belə şəraitdə siyasi partiyalar necə fəaliyyət göstərə bilər?! Respublika üzrə fəaliyyət göstərən partiyalar üçün dövlət büdcəsindən ayrılan vəsait sadəcə təşkilatı ayaqda saxlamaq üçün yetərlidir. Yəni nəzərdə tutulan vəsait qənaətbəxş deyil. Amma yenə də şükürlər olsun ki, verilir. Bu vəsaitlə partiyanın mərkəzi Aparatını saxlamaq olur, gündəlik xərcləri qarşılayırıq, əməkdaşlara kiçik də olsa maaş veririk, zəruri avadanlıq, kompüter və s. alırıq. Həm də rayon şöbələrinə müəyyən ianələr verə bilirik. Ayrılan vəsait partiyanın inkişafı və fəaliyyəti üçün bir stimuldur, motivasiyadır. Vəsaitin partiyalara rüblük təqdim olunması da çox məqbul variantdır. Hətta aylıq verilsə daha yaxşı olar".

**İsmayıl Qocayev**

## Azərbaycan prinsipial geosiyasi iradə nümayiş etdirir

"Postmünaqişə mərhələsində Azərbaycanın irəli sürdüyü təşəbbüslər miqyasına görə regional, strateji əhəmiyyətinə görə qlobal xarakterlidir. Azərbaycan regionda sülh və təhlükəsizliyin bərqərar olması üçün çoxtərəfli əməkdaşlıq platformasının yaradılmasının tərəfdarıdır. Və bu məsələdə prinsipial geosiyasi iradə nümayiş etdirir".



*Ölkəmiz regionda sülh və təhlükəsizliyin bərqərar olması üçün çoxtərəfli əməkdaşlıq platformasının yaradılmasının tərəfdarıdır*

**Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Onun sözlərinə görə, vacib nüanslardan biri budur ki, Azərbaycan dövləti yeni mərhələdə bölgədə nəqliyyat-kommunikasiya xətlərinin bərpası ilə əlaqədar konkret mövqe nümayiş etdirir və əməli addımlar atır:** "Bilirik ki, respublikamız bu günə qədər Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin icrasında çox fəal rol oynayıb. Həmçinin ölkəmizin təşəbbüsü ilə əhəmiyyətli addımlar atılıb. İndiki mərhələdə Azərbaycan Avrasiyada geniş bir coğrafiyanı əhatə edən - Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışır. Bu layihənin gerçəkləşdirilməsi ilə regionda əməkdaşlığa xidmət edən inteqrasiya prosesi güclənəcək. Bu dəhliz, eyni zamanda, ölkəmizin Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi geostrateji mövqeyini möhkəmləndirəcək. Nəticədə tranzit imkanlarını genişləndirəcək və Azərbaycan mühüm siyasi-iqtisadi dividendlər qazanacaq".

*Politoloq əlavə edib ki, Azərbaycanın fəal iştirakı və üstün mövqeyi fonunda cərəyan edən bütün bu proseslər Avrasiyada yeni geosiyasi konfiqurasiyanın formalaşmasına ciddi təsir göstərəcək:* "Azərbaycan Cənubi Qafqazı inteqrasiya və işbirliyi məkanına çevirib. İndi ölkəmizin təşəbbüsü ilə yeni yaranan təhlükəsizlik mühiti regional və qlobal güc mərkəzlərinin vahid platformada ortaq maraqlar əsasında əməkdaşlığı üçün geniş imkanlar açır".

**Aynurə Pənahqızı**

## Bakıda universitetin şöbə müdirinə cinayət işi açılıb



**Bakı Slavyan Universitetinin təhsil şöbəsinin müdiri barəsində cinayət işi başlanıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, bəzi kütləvi informasiya vasitələrində Bakı Slavyan Universitetinin (BSU) Əlavə və qiyabi təhsil şöbəsinin müdiri Dürdanə Əliyevanın külli miqdarda təhsil haqqı məbləğlərini mənimsəməsinə və bunun da həmin təhsil ocağının tələbələrinin narazılığına səbəb olmasına dair məlumatlar yayılıb.

Dürdanə Əliyevanın qeyd edilən qanunsuz əməlləri törətməsi barədə Bakı Slavyan Universitetinin tələbələrindən daxil olmuş çoxsaylı şikayətlər əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırmalar aparılmaqla Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə), 32.4, 312.2 (rüşvət verməyə təhrik etmə), 311.1 (rüşvət alma) maddələri ilə cinayət işi başlanıb.

*Hazırda iş üzrə intensiv istintaq tədbirləri aparılmaqla toplanmış sübutlara hüquqi qiymətin verilməsi və bu barədə ictimaiyyətin yaxın zamanda ətraflı məlumatlandırılması təmin ediləcək.*

# Reanimasiyalar bu qədər yüklənməmişdi



## *Uşaqlar arasında yoluxma və ölüm halları artıb*

Türkiyənin Hacəttəpə Universiteti Tibb fakültəsinin Uşaq Yoluxucu Xəstəlikləri kafedrasının professoru doktor Mehmet Ceylan azyaşlılar arasında koronavirusa yoluxma və ölüm hallarının sayının artdığına diqqət çəkib.

"Uşaqlarda mutant virusdan öncə ağ ciyər tutulmasına bağlı hallar az görünürdü. Amma indi birbaşa ağ ciyər problemi yaşayan uşaqların sayı artıb. Əvvəllər uşaqlar koronavirusa yoluxmanı əlamətsiz keçirirdi. İndi isə əlamətlərə bağlı yoluxma faizi də artdı və uşaqlar ətrafdakıları artıq daha çox yoluxdurur. Mutant virusa yoluxma sayı 0-9 yaş arası uşaqlarda yüksəkdir". Professor bildirib ki, indiyədək reanimasiya şöbələri uşaqlarla bu qədər yüklənməmişdi: "Bunun iki səbəbi var. Birincisi, 65 yaşdan yuxarı insanlar peyvənd olunduqca virusun uşaqlar və gənclər arasında yoluxma halları qabarıq görünməyə başladı. İkincisi, virus, uşaqları və gəncləri yoluxdurma gücünə sahibdir. Virusda baş verən dəyişiklik yoluxma sayının artmasına səbəb oldu. Pandemiyanın ilk vaxtlarında 1-1,5 metr ara məsafəsi saxlamaq güvənli hesab edilirdi. Virus hissəcikləri bu məsafəni yarıb keçsə də, sayları az olduğundan yoluxdura bilmirdi. Ancaq indi virusun tikanlı quruluşunda baş vermiş dəyişiklik, hətta az sayda hissəciklərlə də yoluxdura bilmək qabiliyyətinə malikdir". **M.Ceylan qeyd edib ki, koronavirusun İngiltərə ştammı - mutant virus getdikcə orijinal virusu sıradan çıxarır:** "Bizim bütün xəstələrimizdə artıq mutant virus var. Uşaqlarda yoluxma baş verdikdə daha çox xəstəlik yaradır. Məsələn, ağ ciyərlərin tutulması diaqnozlu uşaqlar yaxşılaşmağa başlayır, yüngülləşirlər, lakin birdən təkrar ağırlaşırlar. Bu da yenə virusun xüsusiyyətinə bağlıdır. Ən çox müşahidə edilən hallar boğaz ağrısı, hərarət və öskürəkdir". Professor bildirib ki, mutant virusda uşaqlar daha çox yoluxma qaynağıdırlar. Uşaqlar hazırda məktəbə getmir. Lakin virusu ailə üzvlərindən, ya bir-birilərindən "qazanırlar." Bəlli yaş həddində olan uşaqlar tibbi maska da taxa bilmir. Bu səbəbdən ara məsafənin 1,5 deyil, 2 metrədək olmasına diqqət edilməlidir. Xəstəliyin hər hansı, kiçik də olsa əlaməti müşahidə edildiyində mütləq həkimə müraciət etmək lazımdır. Professor qeyd edib ki, 3 əczaçılıq firması tərəfindən uşaqlar üçün koronavirus əleyhinə peyvənd hazırlanmasının Faza-1 çalışmalarına başlanılıb. Bəlkə də payızadək işlər tamamlanacaq və uşaqlar da peyvənd oluna biləcəklər.

**Məlahət Rzayeva**

# Fiziki şəxslərin əmanətləri azalıb

## Bu hal bank sektoru üçün arzuolunan deyil




**"Fiziki şəxslərin əmanətləri bu ilin mart ayında əvvəlki aya nisbətən 232 milyon manat azalıb. Belə ki, fevral ayında vətəndaşların banklardakı əmanətləri 8 milyard 379 milyon manat olsa da, bir ay sonra bu göstərici 8 milyard 147 milyon manata düşüb".**

Bunu iqtisadçı-deputat Vüqar Bayramov deyib. Deputat bildirib ki, 4 milyard 101 milyon manat xarici valyutalarda, 4 milyard 46 milyon vəsait isə manatla saxlanılır: "Xarici valyutada saxlanılan əmanətlərin payı cüzi çox olsa da, etiraf etmək lazımdır ki, son illər depozitlərin valyuta strukturu xeyli dərəcədə yaxşılaşıb. Bu isə milli valyutanın 2017-ci ilin ferval ayından etibarən stabil qalması və manatla əmanətlərə xarici valyutaya nisbətən daha çox dividendin ödənilməsi ilə bağlıdır. Fiziki şəxslərin əmanətlərinin azalması tələbli depozit məbləğlərinin aşağı düşməsi ilə bağlı olsa da, bütün hallarda bank sektoru üçün arzuolunan deyil. Digər tərəfdən, depozitlər üzrə dividend faizlərini son illər aşağı endirən əksər banklarda kredit faizləri yüksək olaraq qalmaqdadır. Bu da depozit ödənişləri ilə kredit faizləri arasında kəskin fərqin hələ də qaldığından xəbər verir. Bu baxımdan, bank sektorunda rəqabəti gücləndirməklə depozit və kredit siyasətləri arasındakı mütənasibliyin möhkəmləndirilməsinə ehtiyac var. Bu, passiv vəsaitlərin banklara cəlb edilməsi və kredit şərtlərinin yumşalmasına gətirib çıxara bilər".

**Aynurə Pənahqızı**

# Koronavirus yaxın müddətdə məhv olmayacaq

## Vaksinasiyaya önəm verməliyik ki, karantin cəngindən tezliklə qurtula bilək



**2019-cu ilin dekabr ayından koronavirus adlı bəla dünyanın baş ağrısına çevrilib. 2021-ci ili yarılasaq da, bəşəriyyət olaraq hələ də bu bəla ilə çarpışırıq.**

Ötən aylar ərzində coğrafi mövqeyi və yayılma dinamikasından asılı olaraq ölkələr iki, üç, hətta dördüncü dalğanı belə yaşayıb. Qardaş Türkiyə hökuməti pandemiya səbəbindən tam qapanma tətbiq edəcək. Dünən ölkəmizdə 1392 nəfər koronavirusa yoluxub, 29 nəfər isə dünyasını dəyişib.

**Həkim-psixoterapevt Əli Nağıyev ölkəmizdəki durumla bağlı fikirlərini "Şərq"lə bölüşüb.**

**Həkimin sözlərinə görə, respublikamızda koronavirusla bağlı vəziyyət bəzi ölkələrə baxanda qat-qat yaxşıdır:** "Lakin vəziyyətin yaxşı olması rahatlaşmağımıza əsas verməməlidir. Koronavirusun yeni ştammları var. Bu, bizi məsuliyyətli olmağa məcbur edir. Yeni ştammlar yoluxuculuq qabiliyyətinə görə daha aqressiv hesab olunur. Ona görə də ölkəmizdə yoluxma sayı nə qədər stabil görünsə də, birdən-birə gərgin vəziyyət yaşana bilər. Bu, tamamilə vətəndaşların məsuliyyətindən, gündəlik gigiyena vasitələrindən düzgün istifadədən və karantin qaydalarına riayət etməyimizdən asılıdır. Ən vacib məqam odur ki, hər bir vətəndaş könüllü şəkildə peyvənd olunmalıdır. Vaksinasiyaya önəm verməliyik ki, karantin cəngindən tezliklə qurtula bilək. Düşünməməliyik ki, koronavirus yaxın müddətdə məhv olacaq. Hələ xeyli müddət belə şəraitdə yaşamağa alışmalıyıq".

**Yeganə Bayramova**

# BNA narazılıq toxumu səpir

## 1 manatlıq taksilərin ləğv olunması 140 min vətəndaşı çörəksiz qoyacaq



Bakı Nəqliyyat Agentliyinin (BNA) İdarə Heyətinin sədri Vüsal Kərimli bildirib ki, paytaxtımızda 35-40 min qanunsuz taksi fəaliyyət göstərir. Onun sözlərinə görə, tıxacların səbəblərindən biri də bu cür qanunsuz, 1 manatlıq taksilərin fəaliyyətidir.

V.Kərimli qeyd edib ki, bununla bağlı müvafiq işlər aparılacaq: "Qanunvericilikdə o hissədə boşluq var. Onların cərimələnməsi ilə bağlı Bakı Nəqliyyat Agentliyinin səlahiyyəti mövcud deyil, biz məlumatlandırma rolunu oynayırıq. Bununla əlaqədar təkliflər verilib, yaxın zamanlarda dəqiq bilinəcək".

Hazırda 1 manatlıq taksi xidmətlərindən kifayət qədər geniş istifadə olunur. Etiraf edək ki, BNA bu sahədə müvafiq tədbirlər görəcəyi halda vətəndaşların böyük əksəriyyətinin narazılığına da toxum səpiləcək. Digər məqam isə həm sürücülərin, həm də sərnişinlərin 1 manatlıq xidmətdən məmnunluğudur.

**Nəqliyyat üzrə ekspert İlqar Hüseynli "Şərq"ə bildirib ki, manatlıq taksi fəaliyyətinin ləğvi yanlış addımdır:** "Vüsal müəllimin niyyəti Bakı şəhərində yaranan tıxacları aradan qaldırmaqdır, yoxsa BNA tərəfindən lisenziyalaşdırılan taksilərin fəaliyyətini stimullaşdırmaq? 35 min nəfər 1 manatlıq taksi xidmətini həyata keçirirsə, bu o deməkdir ki, 35 min sürücünün hər birinin ailə üzvü minimum 4 nəfərdirsə, ortada təxminən 140 min vətəndaşın maddi təminat məsələsi var. Xidməti yerinə yetirən taksi sürücüsü lazım olan nişanı alırsa və aylıq dövlət vergisini ödəyirsə, tıxacı bəhanə etmək lazım deyil. Məntiqlə yanaşsaq, bu gün pandemiya dövründə universitet və orta məktəblər bağlanıb. Hər il sentyabr başlayanda tıxaclar çox olurdu, lakin son 2 ildə tıxaclar əvvəlki qədər yoxdur. Yəni 1 manata sərnişin daşımaqla dolanan insanların maddi təminatını qapatmaq üçün tıxac məsələsi gündəmə gətirilməli deyil. Çünki tıxaclar qlobal problemdir. Burada şəhərsalma çox ciddi rol oynayır. Tıxacların yaranmasının günahını 35-40 min taksi sürücülərinin boynuna qoymaq olmaz".

**Ekspertin sözlərinə görə, əsas odur ki, vətəndaşlar bu xidmətdən razıdır:** "Mənim övladlarım da 1 manatlıq taksidən istifadə edirlər. Kimsə Masazırdan, Günəşlidən, "20 yanvar"dan komfortlu xidmətlə 1 manata gəlirsə, deməli, bu xidmət onu tamamilə qane edir, nəninki 10 manat verək. Sürücü xidmət göstərir, çörəkpulu qazanır və ailəsinin maddi durumunu təmin edir. Onlara qarşı sərt qaydalar tətbiq etsək, 140 min Azərbaycan vətəndaşının dövlətdən narazılığına və sosial haqsızlığa şərait yaratmış olaraq. 1 manatlıq taksilərin fəaliyyətini dayandırmaq istəyirlərsə, həmin sürücüləri işlə təmin etsinlər. Bu gün kifayət qədər aztəminatlı ailələr var ki, bu xidmətdən yararlanır. Ona görə də BNA daha mütərəqqi problemləri həll etsin. Məsələn, Bakı şəhərinin daxilində çoxlu parkinqlərin tikilməsinə nail olsun".

**Yeganə Bayramova**

# “Kimsə kiminsə qadınına söyə bilməz”

*Xoşqədəm Hidayətqızı “Ramin yeraz”a həddini göstərəcək*



Xəbər verdiyimiz kimi, narkotik vasitələrin təbliğində şübhəli bilinən "Ramin yeraz" adlı sosial şəbəkə istifadəçisi saxlanılıb. O, həbsindən bir neçə gün öncə canlı yayımda tanınmış aparıcılar Zaur Baxşəliyev və Xoşqədəm Hidayətqızını təhqir edib.

**”Şərq”in məlumatına görə, X.Hidayətqızı sözügedən şəxsin təhqirlərindən xəbərdar olduğunu söyləyib. O, bu barədə instaqramda canlı yayımda danışıb:** ”Bir qadına, bir anaya o şəkildə söyməsi düzgün deyildi. Çox utancverici idi. Mən də dərhal vəkilimə müraciət etdim. Aidiyyəti qurumlara - Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyinə vəziyyəti bildirdik. Fikrimcə, namusu kimsə ləkələyə bilməz. Kimsə kiminsə qadınına söyə bilməz. Təhqir edənlər də bilsinlər ki, sözləri öz evlərindəki qadına aiddir. O qadın da günahsızdır. Axı sən anana, bacına niyə söydürürsən ki?! Bunun cəzasının olduğunu bilməlisən. Mən gedib dava etməyəcəm. Hüquqşünasam və düşünürəm ki, qanun hər şeydən üstündür. Hər addımımı qanunla atıram. Bu günə qədər kimsə deyə bilməz ki, Xoşqədəm kimisə hədələyib. Cavab belə vermirəm, vəkillərimə deyirəm. Məhkəmədə dəfələrlə qazanmışam. Siz də hüquqlarınız pozulanda aidiyyəti qurumlara müraciət edin”.

*Qeyd edək ki, sosial şəbəkələrdə ”Ramin yeraz” kimi qeydiyyatdan keçən şəxsin canlı yayımlar açaraq narkotik vasitələrin təbliğini həyata keçirməsi və ictimaiyyətə yönəlik təhqiramiz ifadələr işlətməsi barədə vətəndaşlardan daxil olmuş çoxsaylı şikayətlər əsasında Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsi tərəfindən müvafiq tədbirlər görülüb.*

*Belə ki, paytaxtın Nizami rayon sakini olan Ramin İsmayılov narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilindiyi üçün saxlanılıb. Şəxsi axtarış zamanı onun üzərindən 5,140 qram heroin aşkar edilərək götürülüb. Həmin şəxs barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, zəruri istintaq tədbirləri davam etdirilir.*

*Şəxs barəsində istintaq müddətində həbs-qətimkan tədbirinin seçilməsi üçün məhkəmə orqanları qarşısında vəsatət qaldırılıb.*

**Samirə Ərəblinski**



## "Ayrılıq" mahnısına görə maşın hədiyyə olunub

Xumar Qədimova nəğmələrini əsasən gecə saatlarında yazır

**Xalq artisti Xumar Qədimova ”Özəl” verilişində qonaq olub. Proqramda sənətçi ilə bağlı 10 fakt təqdim olunub.**

”Şərq” xəbər verir ki, onun gitarada ifa etdiyi məlum olub: ”Xumar xanım mahnılarını əsasən gecə saatlarında yazır. ”Bir də gəlməyəcək sənin tək qadın” mahnısını özünə həsr edib. ”Can nənə, bir nağıl de” ən sevdiyi şeirdir. Dünəni bu gündən gözəl hesab edir. Xəyanət gördüyü zaman sevgisi bitir. Doğum gününü qeyd etməyi sevmir. Tezliklə Ququşun repertuarına müraciət edəcək. Sənət dünyasında özünə yaxın bildiyi kimsə yoxdur. ”Ayrılıq” mahnısına görə maşın hədiyyə olunub”.

**Samirə**

## “İndikilərdə sevgi nə gəzir?"

Mətanət Əsədova:

"Hərə bir yer axtarır ki, sığınsın"



**”Mən təmizlik xəstəsiyəm. Bunu tələb edirəm. Qarşıma çıxan insan çox fikirləşməlidir. Düşünməldiir ki, məni daşıya biləcək, ya yox. Dürüstlüyün,təmizliyin tərəfdarıyam”.**

”Şərq” xəbər verir ki, bu sözləri ”Onun sirri” verilişində müğənni Mətanət Əsədova deyib. O, həyatından danışaraq bunları söyləyib: ”Həyatımda olan insan mənə niyə xəyanət etməlidir ki? Bir ay ölürəm sənin üçün deyib, sonra da xəyanət edəcək? Bu, nəyə görə olmalıdır? İnanmıram mənə xəyanət edilsin. Məni qazanmaq çox çətindir, itirmək isə çox asan. Deyək ki, göz yumdum. Sabah efirə çıxdım, biri gəldi əlimdən tutdu. O, göz yuma bilməyəcək. Hələ o fikirləşmir ki, mən müğənniyəm. İstəmirsən müğənnilik edim, apar evində otuzdur. Amma daşıya bil. Ümumiyyətlə, mənim olana cavabdehəm. İndi Leyli və Məcnun dövrü deyil. Padşah, şah dövrüdür. İndikilərdə sevgi nə gəzir? Hərə bir yer axtarır ki, sığınsın. İnsan kasıb da olar, fəhlə də işləyə bilər. Buna pis baxmıram. Mən yoxsulu da sevərəm, niyə də sevməyim? Kasıblıq onun günahı deyil. Kişi kimi kişi ol, əziyyət çək”.

**Samirə**

# İş adamının iki sevgilisi var?

*Vəfa Şərifovanın adı da Famil Xəlilovla hallanıb*



Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edilən Şəmkirin sabiq icra başçısı Alimpaşa Məmmədova açılan cinayət işində "Park Kolizey" MTK rəhbəri Famil Xəlilovun (Veyis Xəlilov) da adı hallanır. Bu barədə "Qafqazinfo" yazıb ki, sözügedən şəxsin kimliyi ictimaiyyət arasında maraq doğurub.

Məlum olub ki, F.Xəlilov mətbuata heç də yad biri deyil. Belə ki, iş adamının Azərbaycanın tanınmış xanım müğənniləri ilə tez-tez adı çəkilir. Müğənni Şəbnəm Tovuzlu bir neçə il əvvəl iş adamı ilə sevgili olduğunu, hətta vətəndaş nikahında yaşadığını da mətbuata açıqlayıb. Şəbnəm daha sonra Familin sevgilisi yox, rəsmi və dini nikahlı əri olduğunu iddia etmişdi. Onların birgə şəkilləri də mediada yayımlanmışdı. Daha sonra F.Xəlilovun gənc müğənni Vəfa Şərifova ilə də sevgili olması barədə məlumatlar dərc olunub. İddia olunur ki, Vəfanın bir neçə il əvvəl dünyaya gələn övladının atası da Famil Xəlilovdur. Bir neçə il əvvəl V.Şərifovayla Şəbnəm Tovuzlunun münasibəti məhz iş adamına görə gərginləşmişdi. Bu xəbərlərin ardınca özünü Şəbnəm Tovuzlunun köməkçisi adlandıran bir xanım mətbuata açıqlamasında müğənninin həmin şəxslə əlaqəsinin olmadığını söyləyib. Hətta digər müğənni Vəfa Şərifovanı Famil Xəlilovun saxladığını iddia edib.

”Şərq” də bütün bu ittihamlara cavab almaq üçün Vəfa Şərifova ilə əlaqə saxlayıb. İfaçı açıqlama vermək istəmədiyini bildirib: ”Biz hazırda verilişdəyik və o haqda nə isə danışmaq istəmirəm. Kim nə danışıbsa, özündən soruşun. Mən danışmaq istəmirəm”.

*Sonra müğənni yenidən bizimlə əlaqə saxlayaraq məlum xəbərin linkini istəyib. Məlum xəbəri göndərsək də, müğənni bu haqda danışmadı.*

**Samirə**

# “Pulunuz varsa, hamı sizə yaltaqlanacaq”

*Nura Suri: “Çalışın varlı olun, yaxşı insan olmasaz da olar”*

"Xoşbəxtlik pulda deyil" cümləsi bu gün üçün mənasızdır. Sevgini də, hörməti də, sağlamlığı da, xoşbəxtliyi də yalnız pulla almaq mümkündür Pulun varsa, xəstələnəndə ən yaxşı xəstəxanada müalicə olunursan, ən bahalı (Avropa üçün istehsal olunan) dərmanı ala bilirsən".

*”Şərq” xəbər verir ki, bu sözləri feysbuk profilində müğənni Nura Suri yazıb. O, statusa bunları da əlavə edib:* ”Övladının istək və arzularını həyata keçirib onu sevindirirsən və özün onun sevincindən xoşbəxt olursan. Sevgilinlə ən gözəl yerlərdə şam yeməyi, alış-veriş, səyahət hər ikinizi xoşbəxt edir. İdman zalları bağlı olsa da idmanla məşğul ola bilirsən. Çünki öz evində idman zalı qurmaq imkanın var, məşqçi də sənin ünvanına gəlir. Haqsızlığa uğrayanda ən yaxşı hüquqşünası özünə vəkil tutub, haqqını tələb edə bilirsən. Kasıbların heç adi vəkilə də verəcək artıq pulu olmur. Haqq-ədalət onlar üçün çox vaxt yalnız filmlərdə səslənən kəlmələrdir. Çalışın varlı olun, yaxşı insan olmasaz da olar. Pulunuz varsa, hamı sizə ”xanım”, ”bəy” deyə müraciət edib yaltaqlanacaq. Pulunuz varsa, xoşbəxt ola bilərsiz. Xoşbəxt insanın isə sizin onun haqqında nə düşündüyünüz heç vecinə deyil. O heç sizi düşünmür də. Həyatda puldan başqa ən vacib olan isə uğurdur. Hər bir işdə uğurun rolu böyükdür. Özümə və sizə varlı və uğurlu olmağı arzu edirəm”.



**Samirə Ərəblinski**

# Paltar dolabında qorxunc mənzərə




## Gənc qadın dolabın içinə niyə girib?

(Əvvəli səh: 16-da)

Dolabı açdıqda Daniyellanın cansız bədəni ilə qarşılaşıb. Qonşu qadın dərhal təcili yardıma və polisə zəng edib.

Hadisə yerinə gələn təcili yardım həkimi qadının öldüyünü təsdiqləyib, mənzilə ilkin baxış keçirən polis isə şübhəli nəyəsə rastlamayıb. Hadisə ilə bağlı istintaq başlayıb, lakin 24 yaşlı gənc qadının niyə dolabın içinə girdiyi naməlum qalıb.

Qadının dostları onun nəşəli, kübar, xeyirsevər və gülməyi, əylənməyi çox sevən birisi olduğunu deyib. Daniyella sosial mediadakı paylaşımlarında özünü "öz krallığını qurmaq istəyən şahzadə" adlandırırmış. İstintaqın gedişində mətbəx və oturma otağında intihar məktubunun tapıldığı təsdiqlənib. Lakin ailəsi qızlarının intihar edəcək bir durumda olmadığını iddia edir, hadisədən bir gün əvvəl onunla telefon danışıqlarının olduğunu və qızın heç bir şübhəli ifadə, hansısa narazılıq, narahatlıq bildirmədiyini söyləyirlər. Daniyellanın niyə dolabın içinə girdiyi və intihar məktubunda nələr yazıldığı bilinmir. Lakin Daniyellaya 7 il əvvəl "narahatlıq sindromu" diaqnozu qoyulduğu *(yuxusuzluq, depressiya, panika, özünə nəzarəti itirmək...)* və onun bol miqdarda dərman qəbuluna təşəbbüs etdiyi ortaya çıxıb.

**Məlahət**



## 133 min bəyənmə topladı

### Türk müğənni qızı ilə fotolarını paylaşdı

*(Əvvəli səh: 16-da)*

**Müğənni havaların xoş keçməsindən istifadə edib körpəsi ilə bağçaya çıxıb və maraqlı fotoları instaqram hesabından paylaşıb.**

Mərvə Özbəyin paylaşımı qısa müddətdə 133 mindən artıq bəyənmə toplayıb. Mərvə fotoların altından "ana-qız Günəşi gördük. Bu gün "40-mız çıxdı", mələk qızım mənim. Allahım, diləyən, istəyən hər kəsə nəsib etsin. Övladlarımıza sağlıq, səhhət, xoş günlər göstərsin. Ömrümüz yetdiyi qədər yanında olacağıq. Dualarınızı əskik etməyin. Bir "Maşallah"ınızı alarıq..." yazıb. Övladı dünyaya gəldikdə Mərvə Özbəy belə bir paylaşım etmişdi: **"gəl, gözəl qızım. Ailənə, Vətəninə, dünyaya gözəlliklər, xeyir gətir. Çox şükür".**

**Məlahət**



## Qunduzlar interneti kəsdilər

### Onlar özlərinə yuva tikmək üçün materiallar axtarıblar

**Kanadanın "Telus" telekommunikasiya şirkəti qeyri-adi hadisənin baş verməsini açıqlayıb.**

Belə ki, yerli qunduzların fiber-optik kabeli gəmirərək zədələməsi nəticəsində 900 abunəçi internetə çıxış imkanından məhrum olub.

İctnews.az bildirir ki, şirkət nümayəndələrinin sözlərinə görə, kabelin bir neçə yerdən zədələnməsi nəticəsində internet şənbə günü saat təxminən 04:00-da kəsilib və bazar günü saat 15:30-da tam bərpa edilib.

Hadisə yerinin yaxınlığında çəkilən fotoşəkilə görə, qunduzlar özlərinə yuva tikmək üçün materiallar axtarıblar. Onlar liflərin nişanlanması üçün istifadə olunan lenti yuvanın bir hissəsi kimi istifadə ediblər. Qeyd edək ki, adətən bu lent yerin bir neçə metr dərinliyinə basdırılır.

*Provayder nümayəndələri qeyd edib ki, ərazidə mobil rabitə kabel tam təmir olunanadək stabil olmayacaq.*

## "Nar" və AzTU əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirdi






Ölkədə yerli kadrların yetişməsi, onların beynəlxalq rabitə bazarında seçilən peşəkarlardan birinə çevrilməsi məqsədilə "Nar" Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirib.

"Azerfon" MMC-nin ("Nar" ticarət nişanı) Baş İcraçı direktoru Qunnar Panke və AzTU-nun rektoru Vilayət Vəliyev keçirdikləri görüşdə bu barədə müzakirələr aparıblar. Əsas prioritet olaraq yaşıl enerji sahəsində əməkdaşlıq imkanlarının dəyərləndirilməsi müəyyən edilib və mövcud layihələrin karantin qaydalarına uyğun şəkildə davam etdirilməsi razılaşdırılıb.

**Rektor AzTU-nun iqtisadiyyat və sənaye sahələri üzrə kadrlar hazırlamaq imkanı olduğunu bildirib:** "Məqsədimiz biznesdən gələn tələblər və tələbələrin biznesin təcrübi problemlərilə tanışlığı əsasında rabitə bazarının ehtiyaclarına uyğun peşəkarlar hazırlamaqdır". Bu, həm də peşəkar ehtiyacın yerli kadrlarla ödənməsi baxımından yerli biznesin marağındadır".

**Azerfon MMC-nin Baş İcraçı direktoru Q.Panke isə universitetlə genişmiqyaslı layihələr həyata keçirmək niyyətində olduqlarını bildirib:** "İnanıram ki, bizim əməkdaşlığımız texniki sahə üzrə təhsil alan tələbələri yeni nailiyyətlərə ruhlandırır. Əməkdaşlığımızın əsas məqsədi Azərbaycanda rabitə sahəsində peşəkar kadrların hazırlanmasına və onların beynəlxalq rabitə bazarında əcnəbi həmkarlarından daha üstün mövqeyə çatmasına dəstək olmaqdır".

"Nar" 2015-ci ildə AzTU ilə imzalanmış Anlaşma Memorandumu əsasında bir sıra layihələr həyata keçirib. "Nar" GSM laboratoriyası, tələbələr üçün nəzəri və təcrübi təlimlər, əlaçıların mükafatlandırılması bu əməkdaşlıq çərçivəsində həyata keçirilir.

**Elan**

Hacıyev Ziyadxan Dünyaməddin oğlunun adına Naxçıvan MR-nın Culfa rayonu Əbrəqunus kənd orta məktəbi tərəfindən 2012-ci ildə verilmiş orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 794



# 133 min bəyənmə topladı

## Türk müğənni qızı ilə fotolarını paylaşdı

**Türkiyəli müğənni Mərvə Özbəy qızı ilə fotolarını paylaşıb.**

Bir neçə ay öncə dünyaya övlad gətirmənin, ana olmanın sevincini yaşayan Mərvə Özbəy körpə balasıyla çəkdiriyi fotoları daim təqibçilərinə, heyranlarına təqdim etməkdən yorulmur. 32 yaşlı Özbəy bu dəfə də körpəsiylə bağçada çəkdirdiyi fotoları paylaşıb. "Şərq" "milliyyet.com"a istinadən xəbər verir ki, Mərvə Özbəy Kənan Koçakla 2020-ci ilin fevral ayında nikaha daxil olub. Bir neçə ay öncə isə cütlüyün qız övladları dünyaya gəlib, körpənin adını Əlif Özüm qoyublar.

*(Davamı səh: 15-də)*

**Məlahət**

# Dəhşət yaşandı

## İki uşaq torpağın altında qaldı



**Çinin Yulin Shi qəsəbəsində bilinməyən səbəbdən sürüşmə baş verib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, qəsəbədə oynayan 5 uşaqdan ikisi torpaq altında qalıb. Qəsəbə sakinləri əraziyə axın edərək, uşaqları çıxarmağı bacarıblar. Xəstəxanaya yerləşdirilən uşaqların sağlamlıq vəziyyətinin yaxşı olduğu deyilir.

**Yeganə**

# Dünyada ilk dəfə dron taksi sərnişinlə uçub

## Taksi enerji ilə doldurulduqdan sonra 21 dəqiqə uça bilər





**Dünyada ilk dəfə Çində sürücüsüz hərəkət edən dron taksi sərnişinlə uçub.**

"Report" xarici mətbuata istinadən xəbər verir ki, taksi özü ilə iki sərnişin aparıb. Sərnişinlərin təyinat yerinə çatması üçün sadəcə bir düyməni basmaları kifayət edib. Taksinin sürəti 130 km/saatdır. O, enerji ilə doldurulduqdan sonra 21 dəqiqə uça bilər.

# Əkiz olacağını gözləyirdi

## Nəhəng uşaq dünyaya gətirdi





**Britaniyanın Aston şəhərindən olan 21 yaşlı Ember Kamberlend 2020-ci ilin payızında hamilə qalıb.**

Aprel ayında isə onun qarnı o dərəcədə böyüyüb ki, həkimlər əkiz olacağını düşünüblər. Lakin o, əkiz yox, 5,8 kiloqram çəkisi olan nəhəng bir qız uşağı dünyaya gətirib. Big.az xəbər verir ki, bu barədə "Daily Mail" yazır. Maraqlıdır ki, USM zamanı cəmi bir uşaq görünsə də, həkimlər əkiz uşaqların doğulacağına əmin olublar. Onların əminliklə etdikləri bu iddiadan sonra valideynlər də ananın qarnıda "gizlənmiş" ikinci uşağın varlığına inanıblar. Lakin aprelin 16-da dünyaya gələn qız uşağı hər kəsi təəccübləndirib. 5,8 kiloqram çəkisi olan körpəyə Emilya adı verilib. "Emilyanın tək olduğuna sevinirik. O, tamamilə sağlamdır," - deyə xoşbəxt valideynlər təəssüratlarını bölüşüblər.



# Göydən enən kabus

## Dünya bunu da gördü!





**"Şərq" Türkiyə mediasına istinadən bildirir ki, Avstraliyanın paytaxtı Sidneyə yaxın Şoalhaven bölgəsinin sakinləri yuxudan gurultu səsinə oyanıblar.**

"Bu nə səsdir?" deyə pəncərələrə yaxınlaşdıqda gördüklərindən dəhşətə gəliblər; ağ tutuquşular şəhəri istila edib! Sakinlər evdən çölə çıxmağa belə cürət etməyiblər. Sel kimi şəhərə axışmış tutuquşular evlərin damına, səkilərə, yollara - hər yerə qonublar. Bu tutuquşular Corella adlanır. Avstraliya mediası onların vəhşi təbiətli və inanılmaz dərəcədə dağıdıcı, qarşılarına çıxan hər şeyi yox edə biləcəkləri xəbərini sakinlərə çatdırıb və ehtiyatlı olmağa çağırıb. Sosial mediada paylaşılan videogörüntü sürətlə yayılıb. Və ölkə bu dəhşətdən xəbərdar olub. Ağ tutuquşular, xüsusən də kəndlilərin baş bəlasına çevrilib. Çəyirtkələr kimi sürü halında hərəkət edib, bağçaları və əkinləri məhv edirlər. Sidney Universitetinin vəhşi təbiət üzrə mütəxəssisi, professor David Falen tutuquşu sürüsünün yeni bir məkan aşkarlamazdan öncə Novra səmasında toplanmış olduğunu ehtimal edir: "Ağ tutuquşular köçəridir. Yem axtarmaq məqsədilə bir yerdən başqa yerə uçurlar. Novrada qeydə alınmış videodakı kimi bir yer tapdıqlarında hamısı ora eniş edər". Bölgə camaatı tutuquşuların yemlənib uçub getməsini gözləmək məcburiyyətindədir. Tutuquşular uçub getdikdn sonra evlərindən rahat çıxa biləcəklər.

**Məlahət**

# Paltar dolabında qorxunc mənzərə

## Gənc qadın dolabın içinə niyə girib?







**Hadisə İspaniyada baş verib. Daniyella adlı gənc qadın əyləncə mərkəzində barmeniya *(müştərilərə servis xidməti göstərən)* kimi çalışırmış.**

"Milliyet"in yazdığına görə, qonşusu qadının uzun müddətdir görünmədiyini fərq edib, narahat olub. Qadının yaşadığı evə daxil olduqda isə qorxunc mənzərə ilə qarşılaşıb. Daniyella qonşu qadına qapının açarlarını veribmiş. Qonşu qadın onun telefona cavab vermədiyindən şübhələnib. Əvvəlcə mənzildə qadını tapmayıb. Səslənib, yenə cavab almayıb. Bu dəfə ətrafı daha diqqətlə yoxlayan qonşu qadının diqqətini paltar dolabı çəkib.

*(Davamı səh: 15-də)*



# Qiyməti 3 min manatdır

## Fahriye Evcen yeni libası ilə obyektiv qarşısına keçib

**Türkiyəli aktrisa Fahriye Evcen obyektiv qarşısına keçib.**

Sia-az xəbər verir ki, aktirsa yeni şəkillər çəkdirib. Onun fotolarda qırmızı rəngli libası göz oxşayıb.

Aktrisa sözügedən fotoları sosial şəbəkədə yayımlayıb. Onun bu paylaşımı izləyiciləri tərəfindən müzakirələrə səbəb olub. Onlar Fahriyenin libasının qiyməti və markası ilə maraqlanıblar.

*Bəlli olub ki, F.Evcenin libası "Züleyha Kuru" markasına məxsusdur. Qiyməti isə 3 min manatdır.*